# Səyyad Əlizadənin vəziyyəti ağırdır

## Həyat yoldaşının durumu isə normaldır



**Koronavirusa yoluxan müğənni Səyyad Əlizadənin vəziyyəti ağırdır.**

Sənətçinin son sağlıq durumu haqda "Şərq"ə məlumat verən kürəkəni Razim Qarayev bildirib ki, S.Əlizadənin durumunda bir dəyişiklik yoxdur:

"Mərkəzi Gömrük Hospitalındadır, EKMO aparatına qoşuludur. Vəziyyəti ağır olaraq qalır. Həyat yoldaşının durumu normaldır, palatadadır".

**Samirə**

# Tovuza dolu düşüb



**Tovuzun dağ kəndlərinə leysan yağıb, qısa müddətli dolu düşüb.**

Dünən rayonun Kirən, Əhmədabad, Əsrik Cırdaxan və Yanıqlı kəndlərinə dolu düşüb. Bəzi kəndlərdə isə yağışdan sonra sel gəlib.

Təsərrüfata ciddi ziyan dəymədiyi bildirilir. (apa)

Qərb rayonlarında yağıntılı hava şəraiti müşahidə edilir. Temperatur 5-10 dərəcə düşüb.


№ 169 (5450), 2021-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

18 sentyabr 2021-ci il (şənbə)






# Azərbaycan polisi erməni avtomobilinin üzərindən qondarma bayrağı qazıdı

**Gorus-Qafan yolunun Şurnux kəndi ərazisindən keçən 21 kilometr zolağına nəzarət edən Azərbaycan polisi yoldan keçən avtomobillərdəki daha bir qanunsuzluğu aradan qaldırmaq üçün maraqlı üsula əl atıb.**

Ərazidəki postda xidmət edən Azərbaycan polisi sözügedən yoldan keçən avtomobillərin üzərində olan qondarma respublikanın qondarma bayrağını elə yerindəcə süngü ilə qazıyıb.

*Qeyd edək ki, bununla bağlı görüntülər sosial şəbəkələrdə yayılıb.*



# Zəmanət yoxdur

## Bakı Gorus-Qafan yolunu açmayacaq

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinq keçirib. O bildirib ki, Azərbaycan, Rusiya, Ermənistan liderlərinin üçtərəfli bəyanatlarına uyğun olaraq Rusiya Federasiyası (RF) regionda nəqliyyat və iqtisadi əlaqələrin açılması istiqamətində səylərini davam etdirəcək.**

Rusiya rəsmisinin dediyinə görə, Qarabağ ətrafındakı mövcud vəziyyət Azərbaycanla Ermənistan arasındakı sərhədin delimitasiyasına dair işlərin tezliklə başlanmasını, daha sonra isə sərhədin demarkasiyası zərurətini ortaya qoyur.

(səh.6)

# "30 illik işğal Ağdamda dərin izlər buraxıb"

## Aİ-nin xüsusi nümayəndəsi gördüklərindən dəhşətə gəlib





© Trend News

**"Avropa İttifaqı müharibənin fəsadlarını aradan qaldırmaq üçün Azərbaycan və Ermənistanla işləməyi davam etdirməyə hazırdır".**

Bunu Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toyvo Klaar Ağdam rayonuna səfəri zamanı bildirib.

"30 illik işğal dərin izlər buraxıb. Müharibənin dəhşətli bir şey olduğunu yadda saxlamaq lazımdır. Bununla belə, gələcəyə baxmaq lazımdır. Aİ bunun bir nümunəsidir", - Aİ-nin xüsusi nümayəndəsi qeyd edib.

O, Avropa ölkələrinin tarix boyu münaqişə və müharibələrlə üzləşməsinə rəğmən bütün fikir ayrılıqlarını arxada qoymağı bacardıqlarını xatırladıb.

"Avropada da kilsələr, qəbiristanlıqlar, abidələr dağıdılmışdı. Bu, çox acı xatirələrdir, lakin liderlərimiz İkinci Dünya Müharibəsindən sonra qərara gəldilər ki, gələcəyə baxmalı, daha yaxşı Avropanı bərpa etməliyik. Düşünürəm ki, bu nümunə burada da keçərli ola bilər. Avropa İttifaqı iki dünya müharibəsinin ağır nəticələrinin arxada qoyulması təcrübəsini Azərbaycan və Ermənistan ilə bölüşməyə hazırdır. Fərqli və daha yaxşı gələcəyi tapmağa kömək etmək üçün Azərbaycan və Ermənistan ilə işləməyə hazırıq", - T.Klaar deyib.

*Qeyd edək ki, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Ağdama səfər çərçivəsində Pənahəli xanın İmarət kompleksində olub. T.Klaar İmarət kompleksinə burdakı türbələrə baxış keçirib, ermənilərin kompleksin ərazisində törətdiyi vandallıq əməllərinin şahidi olub.*

*Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov xüsusi nümayəndəyə ermənilərin işğal altında saxladığı Azərbaycan ərazilərində, o cümlədən Ağdamda mədəni, tarixi və dini abidələrini dağıtdığını, evləri, inzibati binaları, muzeyləri və digər sosial obyektləri yerlə yeksan etdiyini bildirib.*

*E. Hüseynov işğaldan azad edilmiş Ağdam rayonunda aparılan bərpa, quruculuq işləri barədə də qonağı məlumatlandırıb.*



# "Üç qardaş - 2021" təlimi

## Xüsusi təyinatlılar döyüşə hazır vəziyyətə gətirilib

**Azərbaycan, Türkiyə və Pakistan Respublikaları arasında hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Bakıda keçirilən "Üç qardaş - 2021" beynəlxalq təliminin növbəti mərhələsi uğurla icra olunub. Bu barədə "Şərq"ə Müdafiə Nazirliyinə istinadən xəbər verir.**

Təlimin planına uyğun olaraq xüsusi təyinatlılar döyüşə hazır vəziyyətə gətirilərək bölmələrimizin müdafiəsinin dərinliyinə daxil olan şərti düşmən qruplaşmasının məhv edilməsi tapşırıqlarını yerinə yetiriblər.

*Sentyabrın 20-dək davam edəcək təlimlərin bu mərhələsində də qardaş ölkələrin xüsusi təyinatlıları yüksək peşəkarlıq nümayiş etdiriblər.*

# Milli Məclis də sabah eyni qərarı verəcək

## "Taarif Şurasını ləğv etsək qiymətlər yenə ucuzlaşmayacaq"




**İl ərzində "Aİ 95" markalı benzinin qiyməti 4 dəfə qaldırılaraq 1,60 manata çatdırılıb.** "Aİ-98" markalı benzinin qiyməti isə 1,90 manata yüksəlib. Qurumlardan verilən açıqlama isə hər dəfə bu yöndə olur - "Ölkəmizdə premium və super markalı benzinin qiymətinin artmasına beynəlxalq bazarda məhsulun dəyərinə təsir edən amillər səbəb olur".

(səh.3)



# Mehriban Zəki:

# "Fəxrəddin Manafov mənim əbədi tərəf müqabilimdir"

## "Ondan çox şey öyrəndim: orqanik olmağı, səmimiyyəti, dik gözünün içərisinə baxmağı"

**"Çox dəyərli tərəf müqavillərim olub. Çox rejissorlarla işləmişəm, necə ki, Vaqif İbrahimov təkrarolunmaz və əvəzolunmazdır. Tərəf müqabillərim arasında da bir nəfər var ki, əvəzolunmaz və təkrarolunmazdır".**

Bu sözləri Xalq artisti Mehriban Zəki "Bakı gecələri" verilişində deyib. Aktrisa onun üçün önəmli olan tərəf müqabilinin adını açıqlayıb:

"O, mənim əbədi tərəf müqabilimdir. Bilmirəm taleyimiz necə gətirəcək, qismət, arzu... Həyatdır, çox şey ola bilər. Amma nə olsa da, o insan mənim üçün əvəzolunmaz qalıb. Ondan çox şey öyrəndim: orqanik olmağı, səmimiyyəti, dik gözünün içərisinə baxmağı. Əsl tərəf müqabili pas ötürməyi bacarmalıdır. Bu yalnız söz, replika, mimika deyil, həm də energetik pasdır. Həmin tərəf müqabili mənim üçün Fəxrəddin Manafovdur".




# Türk ordusu güclənir

## Erməni mediası Ərdoğana təriflər yağdırdı




**Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyənin inkişaf edən və artan silah texnologiyası Suriya, Liviya və Qarabağ savaşında böyük uğurlar əldə etdi. Xarici və yerli mətbuat milli silahları günlərlə manşetlərə çıxardı və bir çox ölkələr xüsusilə PUA-lara can atdı.**

"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, bu fakt ermənilərə də böyük təsir göstərdi. Erməni lobbisinin ən böyük media orqanı olan "The Armenian Weekly" Prezident Ərdoğanın həyata keçirdiyi siyasətə diqqət çəkdi və Türkiyənin müdafiə sənayesi ilə bağlı təəccüblü açıqlamalar yaydı.

(səh.2)

# Razılaşmağa bir addım qalıb, amma...

## Daxili və xarici güclər Paşinyana təzyiq göstərir

**Erməni xalqından ikinci dəfə mandat alan Baş nazir Nikol Paşinyanın imkanları var ki, 10 noyabr və 11 yanvar razılaşmalarının tələblərinə əməl etsin. İndiki şəraitdə bəyanatlarda göstərilən müddəaların icrası üçün fürsət yaranıb.**



Artıq İrəvan hökuməti özü də anlayır ki, çıxış yolu Azərbaycanla və Türkiyə ilə əməkdaşlıq yolunu tutmaqdadır. Paşinyanın son günlər yumşaq ritorika sərgiləməsi, regional əməkdaşlıqdan danışması bunun bariz nümunəsidir.

(səh.3)



# Musiqi Akademiyasının əməkdaşları təltif olundu

## Prezident İlham Əliyev Sərəncam imzalayıb

**Prezident İlham Əliyev sentyabrın 17-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə akademiyanın bir qrup əməkdaşının təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, 7 nəfər 3-cü dərəcəli "Əmək" ordeni, 15 nəfər isə "Tərəqqi" medalı ilə təltif edilib. Bundan başqa, 2 nəfər "Əməkdar incəsənət xadimi", 2 nəfər "Əməkdar artist", 23 nəfər "Əməkdar müəllim" fəxri adı ilə təltif olunub.

Azərbaycanda musiqi təhsilinin inkişafında xidmətlərinə görə 3 nəfərə isə Prezidentin fərdi təqaüdü verilib.

Məlumat üçün bildirək ki, akademiya 1922-ci ildə yaradılıb. BMA-nın hal-hazırda yerləşdiyi binanın (M. İbrahimov küçəsi 8) özülü 1885-ci ildə qoyulsa da, ilk musiqi təhsil ocağı kimi 1895-cı ildən fəaliyyətə başlayıb. Musiqi məktəbinin əsasını Moskva konservatoriyasının yetirməsi Antonina Nikolayevna Yermolayeva qoyub. 1906-cı il 6 dekabr tarixli 3036 saylı "YRMO"-nun sənədlərində göstərilir ki, A. N. Yermolayevanın təşkil etdiyi özəl musiqi texnikumu 1901-ci ildən "YRMO"nun nəzdində "Bakı Musiqi Sinifləri " adlandırılmışdır. 1915-1916-cı ildə Bakı Musiqi Siniflərinə rəhbərlik etmək üçün Odessa Konservatoriyasının pianoçusu Y.A.Rijinskiy dəvət edilir. O, musiqi siniflərini 24 iyun 1916-cı il tarixli əmri ilə Musiqi texnikumuna çevrilir. Azərbaycan musiqi mədəniyyətinin inkişafında əlamətdar hadisə 1920-ci ilin may ayında olub. Bu tarixdə Musiqi texnikumunun bazasında YRMO-nun Bakı şöbəsinin Xalq Konservatoriyası yaradılır və az keçmədən, yəni oktyabr ayında Azərbaycan Dövlət Konservatoriyası adlandırılır.

Azərbaycanda peşəkar musiqi təhsilini qurmaq və kvalifikasiyalı peşəkar musiqi mütəxəssislərinin hazırlanması məqsədilə, Azərbaycan SSR-nin Narkomprosunun Kollegiyası tərəfindən konservatoriyanın nəzdində qısa müddətli "Şərq musiqisi" pedaqoji kursları yaradılır və o dövrün tanınmış xalq sənətkarlarından - Seyid Şuşinski, Ələsgər Abdullayev, Hüseynqulu Sarabski, pianoçu Xədicə Qaibova, tarzənlərdən - Qurban Pirimov, Şirin Axundov, Həsən Əliyev və başqaları oxumaq üçün bu kurslara göndərilir. Narkomprosun qərarında müsəlman qadınlar üçün "Şərq musiqisi"pedaqoji kurslarının da açılması nəzərdə tutulub.

*Onu da əlavə edək ki, 26 may 2021-ci il Azərbaycan Respublikası Prezidenti Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.*

# Qərargah bütün qüvvələri səfərbər edib

## Məqsəd Qarabağda quruculuq işlərini ən qısa zamanda yekunlaşdırmaqdır



**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.**

Prezident Administrasiyasının və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə keçirilən iclasda dövlət başçısının tapşırıqlarının icrasına dair son vəziyyət təhlil edilib. Qısamüddətli və uzunmüddətli perspektivdə qarşıda duran məqsədlər və onların həyata keçirilməsi ilə bağlı qurumlararası əlaqələndirmə məsələləri müzakirə olunub. Samir Nuriyev bildirib ki, işğaldan azad edilmiş ərazilərdə sürətlə həyata keçirilən genişmiqyaslı quruculuq işləri dünya miqyasında nümunəvi xarakter daşıyır. Bununla yanaşı, müəyyən olunmuş vəzifələrin yüksək keyfiyyətlə və daha operativ yerinə yetirilməsi üçün Qərargahın, işçi qrupların fəaliyyətinin konkret nəticələrinin əldə olunması istiqamətində səfərbər edilməsi zəruridir. Ümummilli prioritetlərdən biri olan bərpa və yenidənqurma işləri ilə bağlı səmərəliliyin yüksəldilməsi üçün gündəlik qurumlararası sıx əlaqələndirmə, kompleks yanaşma və vəzifə funksiyalarının dəqiq bölgüsü mütləq şərtdir. Qərargahın rəhbəri bu sahədə məsuliyyətin davamlı şəkildə artırılmasının vacibliyini diqqətə çatdırıb. İclasda şəhərsalma, enerji təminatı, tarix və mədəniyyət abidələrinin bərpası, təhsil və səhiyyə xidmətlərinin planlı təşkili ilə bağlı məsələlər də ətraflı müzakirə edilib.

**Administrasiya rəhbərinin diqqət yönəltdiyi məqamı "Şərq"ə dəyərləndirən millət vəkili Ceyhun Məmmədov deyib ki, işğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işləri çox sürətlə aparılır.** Deputatın sözlərinə görə, Əlaqələndirmə Qərargahının yaradılmasında məqsəd işlərin koordinasiyalı aparılması və mümkün qədər tez zamanda yekunlaşmasıdır: "Hər bir dövlət qurumlarına bununla bağlı zəruri tövsiyə və tapşırıqlar verilib. Şübhəsiz, görülən işlər zamanı qurumların bir-biri ilə sıx əlaqəsi, koordinasiya çox önəmlidir. Məqsədimiz Qarabağdakı quruculuq işlərini ən yaxın zamanlarda yekunlaşdırmaqdır ki, vətəndaşlarımızı tezliklə öz doğma yurdlarına qaytaraq. Bu da ancaq qurumların birgə fəaliyyəti ilə mümkündür. Dövlət orqanları bu məsələyə kifayət qədər həssas yanaşmalıdır. İş elə qurulmalıdır ki, quruculuq və bərpa işlərini vaxtında başa çatdıra bilək".

**İmayıl Qocayev**

# Ermənistanı ifşa edən bütün vasitələrdən istifadə etməliyik



**Fazil Mustafa:**

## Beynəlxalq aləmin qarşısına irqi ayrı-seçkiliklə bağlı faktlar qoya bilərik

**Azərbaycan Xarici işlər nazirinin müavini Elnur Məmmədov "Twitter" hesabında Ermənistanın məsuliyyətə cəlb edilməsinə dair paylaşım edib. Onun sözlərinə görə, Azərbaycan irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın pozulmasına görə Ermənistanı məsuliyyətə cəlb edəcək.**

"Önümüzdəki günlərdə irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın pozulmasına görə Ermənistanı məsuliyyətə cəlb edəcəyik. İşğal zamanı azərbaycanlıların insan hüquqlarının 30 il ərzində pozulması qəbuledilməzdir".

**XİN-in bu istiqamətdə addımlar atmasının təqdirəlayiq hal olduğunu "Şərq"ə vurğulayan millət vəkili Fazil Mustafanın qənaətincə, Ermənistanı ifşa edən bütün vasitələrdən istifadə etmək lazımdır:**

"Xüsusilə də beynəlxalq konvensiyaların pozulması istiqamətində irqi və dini ayrı-seçkiliyin təzahürlərini diqqətə çatdırmalıyıq. Bununla bağlı təbliğatlar da bizim üçün vacibdir.

Çünki beynəlxalq platformada müvafiq sənədlərdən istifadə edərək məsələ qaldıra bilərik. Müzakirələrdə də ermənilərin qarşısına irqi ayrı-seçkilik kimi faktları qoya bilərik.

Xüsusən dağıdılmış ərazilərimizlə bağlı mülki iddia mövzusunu ciddi şəkildə təbliğ etməli, həm də 30 il ərzində vətəndaşlarımızın hüquqlarının pozulması ilə bağlı məsələnin üzərinə getməliyik. Bu çox vacibdir və problemi gündəmdə saxlamaq maraqlarımıza uyğundur".

**Yeganə Bayramova**






**Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyənin inkişaf edən və artan silah texnologiyası Suriya, Liviya və Qarabağ savaşında böyük uğurlar əldə etdi. Xarici və yerli mətbuat milli silahları günlərlə manşetlərə çıxardı və bir çox ölkələr xüsusilə PUA-lara can atdı.**

# Türk ordusu güclənir

## Erməni mediası Ərdoğana təriflər yağdırdı

"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, bu fakt ermənilərə də böyük təsir göstərdi. Erməni lobbisinin ən böyük media orqanı olan "The Armenian Weekly" Prezident Ərdoğanın həyata keçirdiyi siyasətə diqqət çəkdi və Türkiyənin müdafiə sənayesi ilə bağlı təəccüblü açıqlamalar yaydı.

"The Armenian Weekly"də dərc olunan "Ərdoğan dövründə türk ordusunda inqilab" başlıqlı məqalədə Türkiyənin müdafiə sənayesinin addım-addım necə inkişaf etdiyi izah edildi. 2019-cu ildə dünyanın 12 -ci ən böyük silah ixracatçısı olduğu və önümüzdəki illərdə ilk 10-luğa daxil olacağı vurğulandı.

Müasir silah texnologiyasının yer aldığı yazıda, türk hava qüvvələrində inqilab edən Selçuk Bayraktarın Türkiyənin ilk yerli və işlək PUA sistemlərinin memarı olduğu ifadə edildi. "Baykar" şirkəti tərəfindən istehsal edilən, uzaqdan idarə olunan və müstəqil uçuş əməliyyatlarına qadir olan pilotsuz döyüş aparatlarının əməliyyatlarda uğur qazandıqdan sonra Ukrayna, Polşa və digər ölkələr tərəfindən satın alınmaq istənməsi vurğulandı. Türk pilotsuz uçuş aparatlarının türk xalqı üçün qürur mənbəyi olduğu ifadə edildi.

**İsmayıl**

# "Hər cür oyuna hazırıq"

## Asim Mollazadə: "Müxtəlif fikirlər məqsədli şəkildə yayılır və qələbəmizə kölgə salmaq üçündür"

**Jurnalist, siyasi şərhçi Fuad Abbasov ötən gün "Şərq"ə müsahibəsində Qarabağdakı sülhməramlıların fəaliyyəti barədə danışıb. O bildirib ki, rus sülhməramlılarının Qarabağda beş ildən artıq qalmasına mane olmaq lazımdır:**



"Bildiyiniz kimi, bəzi beynəlxalq təşkilatlar Ermənistanı dəstəkləyir. Sülhməramlıların fəaliyyət müddəti başa çatanda ermənilər guya onlara qarşı kütləvi soyqırımın olması haqqında dünyaya car çəkə bilərlər. Bu, tipik erməni fitnəsidir və Azərbaycan hakimiyyəti üçün gözləniləndir. Hətta, ola bilsin, ermənilər bu barədə saxta fotolar, videolar yayacaqlar. Bizsə BMT Təhlükəsizlik Şurasının növbəti iclaslarının birində rus sülhməramlılarının beynəlxalq sülhməramlılarla əvəzlənməsi məsələsini gündəmə gətirməliyik".

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə səslənən təklifə dair fikirlərini "Şərq"lə bölüşüb. O düşünür ki, təşvişə ehtiyac yoxdur:**

"Sülhməramlıların Qarabağa gəlişi üçtərəfli razılaşma ilə tənzimlənib. Azərbaycan istənilən təxribatın qarşısını almağa qadir dövlətdir. Sənəddəki bütün maddələrin yerinə yetiriləcəyinə isə əminəm. Beləliklə, söz-söhbətlərə qon qoyulacaq. Məlum olduğu kimi, rəsmi Bakı indiyədək öz işini özü gördü: BMT-nin qətnamələrini yerinə yetirdik, Minsk qrupunun vəzifəsini icra etdik. İran Qarabağa yüklər daşıyırdı. Nə oldu? Qarşısını aldıq. Yəni biz çox "oyun"ların qarşısını almışıq. Bundan sonra da hər cür "oyun"a hazırıq. Müxtəlif fikirlər məqsədli şəkildə yayılır və qələbəmizə kölgə salmaq üçündür".

**Kənan**

**Yeganə Bayramova**

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Miqrasiya məsələləri üzrə komitəsi Ermənistanı Azərbaycanın əvvəl işğal altında olmuş ərazilərində quraşdırılan bütün minaların xəritələrini verməyə çağırıb. Komitə İkinci Qarabağ müharibəsindən sonra qısa və uzunmüddətli perspektivdə humanitar fəsadların aradan qaldırılması üçün tərəflərə tövsiyələr hazırlayıb.**






# AŞ PA-dan Ermənistana çağırışlar hələ çox olacaq

## İsrarlıyıq, ermənilər mina xəritələrini tam şəkildə təhvil verməlidirlər

Eyni zamanda, komitə noyabrda atəşin dayandırılmasından sonra 159 azərbaycanlının minaya düşməsi nəticəsində ölməsi və ya yaralanması ilə bağlı təəssüfləndiyini ifadə edib və Ermənistanı dərhal əlində olan mina xəritələrini təhvil verməyə çağırıb.

Çağırışların müsbət nəticə verib-verməyəcəyinə dair "Şərq"ə danışan AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov qeyd edib ki, bir neçə müddətdir Azərbaycan nümayəndə heyəti AŞ PA-da növbəti sessiya üçün işə başlayıb: "Nümayəndə heyətinin bir qismi Strasburqda canlı, digər qismi isə onlayn iştirak edəcək. Bu sessiyada Azərbaycan-Ermənistan müharibəsindən yaranmış fəsadlar adı altında məruzə də müzakirə olunacaq. Həmin məruzənin içərisində məhz AŞ PA-nın etdiyi çağırışlar yer alır. Konkret olaraq Ermənistana çağırışlar var ki, mina xəritələrini tam şəkildə təhvil versin. Onlar bunu etmirlər, etdikləri də cuzi miqdardadır. Xəritələrin böyük hissəsi hələ qalıb və təhvil verilmir. Ona görə də belə çağırışlar hələ çox olacaq. Mina xəritələri ilə bağlı israrlarımızı demişik, Avropa Şurası və başqa beynəlxalq təşkilatlar da bu barədə xəbərdarlıqlar edir. Ancaq ermənilər çalışırdılar ki, məsələni hansısa formada ölkəmizdə əsirlikdə olan terroristlərlə bağlasınlar, humanitar məsələləri kənara qoyub başqa bəhanələr tapsınlar. Lakin bunu etmək mümkün deyil. Çünki bütün bunlar faktiki olaraq müharibənin davam etdirilməsi deməkdir. Sülh istəyirlərsə, mina xəritələrini təhvil verməlidirlər. Əməl etməyəcəklərsə, deməli, müharibə və provokasiya tərəfdarıdırlar. Biz beynəlxalq təşkilatlardan yox, ümumiyyətlə, ermənilərdən bu mövzuda əl çəkməyəcəyik. Lazım olsa, daha yüksək səviyyədə çağırışlar edəcəyik".

**Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin iclası keçiriləcək. Belə ki, Gürcüstanın Türkiyədəki səfiri Giorgi Cancğava bu ölkənin Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Akif Çağatay Kılıçla görüşüb. Bu barədə Gürcüstanın Ankaradakı səfirliyindən bildirilib.**

**Tərəflər Gürcüstan və Türkiyə parlamentləri arasındakı mövcud münasibətlərin səviyyəsindən məmnunluq ifadə ediblər və parlament komitələrinin iki ölkənin qanunverici orqanları arasındakı əməkdaşlığın dərinləşdirilməsində oynadığı müsbət rol qeyd olunub.**



# Gürcüstanda təlimlərə qatılacaq

Tiflisin NATO-ya inteqrasiya olunmasına Ankara mühüm dəstək göstərməkdədir

*Görüşdə həmçinin ikitərəfli, çoxtərəfli əməkdaşlıq məsələləri və regionda baş verən proseslər də nəzərdən keçirilib. Tərəflər yaxın zamanlarda Gürcüstan, Türkiyə və Azərbaycan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli toplantısının keçirilməsinə hazırlıq ifadə ediblər.*

**İclasın əhəmiyyətini "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq münasibətlər üzrə ekspert Əziz Əlibəyli qeyd edib ki, pandemiyaya qədər tərəflərin parlamentləri arasında əlaqələr yaxşı idi:** "Sonradan isə görüşlər olmadı, ancaq onlayn müzakirələr keçirildi. Yəqin ki, iclasda bölgədə üç ölkənin maraqlarının kəsişdiyi bütün məsələlər müzakirə ediləcək. Həmçinin Ermənistanın regiona yönəlik siyasəti əksini tapacaq".

**Şərhçinin sözlərinə görə, bundan sonra rəsmi Tiflislə əlaqələr daha da güclənəcək:** "Gürcüstan Rusiya ilə münasibətlərə görə "Üç qardaş-2021" təlimlərinə qoşulmadı. Amma müşahidəçi statusuna malik olması gələcəkdə Gürcüstanın da bu təlimlərə qoşulmasını istisna etmir. Türkiyə-Gürcüstan əlaqələri yüksək səviyyədədir. Tiflisin NATO-ya inteqrasiya olunmasına Ankara mühüm dəstək göstərməkdədir. Fikrimcə, bunun qarşılığı olaraq Gürcüstan Ankaranın səylərinə töhfə verə bilər".

**Kənan**



Baydenin Əfqanıstanda məğlub olması Ərdoğanın qələbəsi ilə nəticələnə bilər



# ABŞ mediası: Türkiyə bacardı

**ABŞ-ın nüfuzlu mətbuat orqanı olan "Washinqton Post" qəzeti Türkiyənin Əfqanıstandan çıxmasını doğru hərəkət və risklərlə öz xeyrinə çevirməyi bacardığını yazıb.**

"Şərq" qəzeti Türkiyə mətbuatına istinadən xəbər verir ki, "Baydenin Əfqanıstanda məğlub olması Ərdoğanın qələbəsi ilə nəticələnə bilər" başlıqlı xəbərdə aşağıdakı ifadələrə yer verilib: "Əfqanıstanın taliblərin əlinə düşməsi, Bayden administrasiyasının Trampdan sonrakı dünyada ABŞ-ın nüfuzunu qorumaq səyləri üçün utancverici bir hadisə oldu. Qərb ictimaiyyətin bu fiaskonu unutması üçün vaxt qazanmaq istəyəcək".

**Nəşr yazıb ki, türklər təxliyə işlərində son dərəcə uğurlu oldular. Üstəlik, Qətərlə birlikdə Kabil hava limanının istismarına texniki yardım göstərirlər:** "Ankara hökuməti digər NATO ölkələrindən fərqli olaraq Əfqanıstanla əlaqəni təmin etmək üçün səfirliyini açıq saxladı. Türkiyə yeni "Taliban" hökumətinin anons mərasiminə Rusiya və Çinlə birlikdə dəvət olunan altı ölkədən biri idi. Ərdoğanın qərarları öz bəhrəsini verməkdədir. Bayden rəhbərliyi əvvəlcə Ankaradan uzaq olsa da, hər şey dəyişmiş kimi görünür. Bayden Brüsseldə Ərdoğanla görüşdü və görüş yaxşı keçdi. ABŞ siyasətçilərinin gözündən qaçan məqam odur ki, Türkiyə regional münaqişələrdə təhlükəsizlik təminatçısından daha çox şey təklif edir".

**İsmayıl**

# Milli Məclis də sabah eyni qərarı verəcək

"Taarif Şurasını ləğv etsək qiymətlər yenə ucuzlaşmayacaq"





"Benzinin istehsalı ilə məşğul olmaq lazımdır. Bütün əlavə xərcləri vətəndaşların üzərinə yükləmək yolverilməzdir"

**İsmayıl Qocayev**

**İl ərzində "Aİ 95" markalı benzinin qiyməti 4 dəfə qaldırılaraq 1,60 manata çatdırılıb. "Aİ-98" markalı benzinin qiyməti isə 1,90 manata yüksəlib. Qurumlardan verilən açıqlama isə hər dəfə bu yöndə olur - "Ölkəmizdə premium və super markalı benzinin qiymətinin artmasına beynəlxalq bazarda məhsulun dəyərinə təsir edən amillər səbəb olur".**

Yəni benzinin satış qiymətinin dövlət tərəfindən tənzimlənmədiyi vurğulanır. Qeyd olunur ki, dünya bazarındakı mövcud dəyişikliyi nəzərə alan SOCAR bununla bağlı Taarif Şurasına müraciət edir. Şura da neft şirkətinin əsaslandırılmış qərarını qəbul etmək "məcburiyyətində" qalır. Ümumiyyətlə, əksər qiymət artımından sonra Taarif Şurası ciddi tənqid olunur. Əksər hallarda qurumun ləğv edilməsi, tərkibinin dəyişdirilməsi, yaxud səlahiyyətlərinin başqa orqana verilməsi təklif edilir. Mütəmadi gündəmə gələn təkliflərdən biri də Taarif Şurasının bütün səlahiyyətlərinin Milli Məclisə verilməsi ilə bağlıdır. Hesab olunur ki, indiki halda Şura sadəcə məşvərətçi qurum kimi parlamentə təklif verməklə məşğul olmalı, müstəqil qərar qəbul etmək hüququ əlindən alınmalıdır.

**Məsələn, millət vəkili Fazil Mustafa düşünür ki, Taarif Şurasının qərarları sanki cəmiyyəti məqsədli şəkildə qıcıqlandırmaq üçün verilir. Deputat vurğulayıb ki, pandemiya dövründə cəmiyyəti daha da qıcıqlandırmaq, hansısa vəsaitləri insanların hesabına təmin etmək məsuliyyətsizlikdir:** "Əgər bu illər ərzində Azərbaycanda yüksək oktanlı, keyfiyyətli benzin emal etməyi bacarmamısınızsa, bunun bədəlini niyə vətəndaşlar ödəməlidir? Sanki məmurlar illər ərzində özlərinin edə bilmədiklərinin heyfini xalqdan çıxırlar, vətəndaşları soyurlar". Parlament üzvünün sözlərinə görə, Taarif Şurasının qiymət siyasətilə bağlı yekun qərar vermək üçün hər hansı hüquqi statusu yoxdur: "Nədənsə, qərar verilir və dərhal da qiymətlər qalxır, müxtəlif sahələrdə bahalaşma müşahidə olunur. Qiymət siyasətini Milli Məclis müəyyən etməlidir, Taarif Şurası isə sadəcə məşvərətçi qurum olaraq parlamentə öz təkliflərini təqdim etməlidir. Məmurların məsuliyyətsiz hərəkətləri üzündən, cəmiyyət deputatları qınayır, Milli Məclisi günahlandırır. Şübhəsiz ki, bu mövzuda parlamentdə çıxışlar və təkliflər olacaq".

**Mövzunu "Şərq"ə təhlil edən AĞ Partiya sədri Tural Abbaslı isə bildirib ki, Taarif Şurası bir neçə nazirlik təmsilçisini özündə birləşdirən məşvərətçi orqandır. Partiya rəhbərinin sözlərinə görə, Şuranın nazirliklərdən təşkil olunmasının özü yanlışdır:** "Əhali qiymət artımı ilə bağlı narazılıq bildirəndə, Şuranı şikayət edəndə, orada təmsil olunan heç bir nazirlik tənqidi birbaşa üzərinə götürmür. Dövlət orqanları məsuliyyəti bir-birinin üzərinə atırlar. Məsələ ondadır ki, qiymət məsələsi siyasi mahiyyət kəsb edirsə, bahalaşma qaçılmaz və mütləqdirsə, Milli Məclis də sabah həmin qərarı verəcək. Taarif Şurasının səlahiyyətlərinin parlamentə verilməsi o demək deyil ki, Milli Məclis qiymət artımı ilə bağlı bütün müraciətləri geri çevirəcək, heç birinə müsbət cavab verməyəcək. Hazırda parlamentin qəbul etdiyi bir çox qanunla bağlı ictimaiyyətdə narazılıq var. Taarif Şurasını ləğv etsək, səlahiyyətlərini başqa quruma versək belə qiymətlər ucuzlaşmayacaq. Hər dəfə yüksək oktanlı benzinin qiyməti qalxanda və bunun dünya bazarındakı proseslərlə bağlı olduğunu deyəndə haqlı olaraq hamı sual edir ki, niyə illər ərzində özümüz yüksək keyfiyyətli benzin istehsal edə bilməmişik?! Niyə öz benzinimizin keyfiyyəti avro-5 standartlarına uyğun deyil. Bir az da benzinin istehsalı ilə məşğul olmaq lazımdır. Bütün əlavə xərcləri vətəndaşların üzərinə yükləmək yolverilməzdir. İqtisadi siyasətdə bu cür yanaşmanı kökündən dəyişməliyik".

# Milyardlarla təzminat davası aça bilərik

Əlimizdə kifayət qədər dəlillər mövcuddur



"Xarici siyasətimizdə əsas hədəf Ermənistanın üzərinə getmək olmalıdır"

**İsmayıl Qocayev**

**Ermənistan növbəti dəfə Azərbaycanı Beynəlxalq Cinayətlər Məhkəməsinə verib. Bu barədə məlumatı Haaqada mənzillənmiş Beynəlxalq Cinayətlər Məhkəməsi yayıb.**

Ermənilər tərəfindən BMT-nin ən yüksək məhkəmə instansiyasına ünvanlanan iddiada rəsmi Bakı Qarabağda son müharibə də daxil, "onilliklərdir Ermənistan vətəndaşlarına və etnik ermənilərə qarşı insan haqları pozuntularında" ittiham olunub. İddiada qeyd edilib ki, guya, Azərbaycan erməniləri "etnik diskriminasiyaya" məruz qoyub. İrəvanın ittihamına görə "ermənilər, sistematik diskriminasiyaya, kütləvi qırğınlara, işgəncə və başqa insan haqları pozuntularına məruz qalıblar". Ermənistan sərsəmcə iddia edib ki, guya, "Azərbaycan 2020-ci il 10 noyabr atəşkəsinin ardınca erməni hərbi əsirlərə, girovlara qarşı qətl, işgəncə və başqa bəd əməlləri davam etdirib". İrəvan hökuməti məhkəməni "son dərəcə təcili tədbirlər görməyə" çağırıb. Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, Ermənistana qarşı onun iddiasında adı çəkilən pozuntular üzrə əks-iddia qaldıracaq. XİN sözçüsü Leyla Abdullayeva qeyd edib ki, ərazilərimizin bir hissəsinin Ermənistan tərəfindən qanunsuz işğalına son verildikdən sonra azərbaycanlılara qarşı insan hüquqlarının kobud şəkildə pozulmasına dair faktlar diqqətlə toplanılıb və sənədləşdirilib: "Avropa İnsan Haqları Məhkəməsində Ermənistana qarşı qaldırılan iddiaya əlavə olaraq, irqi ayrı-seçkiliyə görə də İrəvanın məsuliyyətə cəlb edilməsi üçün məhkəməyə müraciət olunacaq: "Buraya Ermənistanın azərbaycanlıları etnik mənşəyinə görə zor gücünə qovması, işgəncə verməsi, öldürməsi və qəddar rəftar etməsi halları daxildir. Bir milyondan çox azərbaycanlı Ermənistanın təcavüzü nəticəsində evlərindən zorla qovulub. Azərbaycanın şəhərləri tamamilə yer üzündən silinib". Ermənistan üçtərəfli bəyannamənin imzalanmasından sonra da minaların basdırılması vasitəsilə azərbaycanlı məcburi köçkünlərin evlərinə geri dönüşünün qarşısını alır.

**Ermənistan tərəfinin növbəti həyasızlığı ilə bağlı "Şərq"ə danışan Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı deyib ki, 44 günlük savaşdan və ağır məğlubiyyətdən sonra Ermənistan Azərbaycana zərbə vurmaq üçün bir çox üsula əl** atır. Professorun sözlərinə görə, erməni diasporası Azərbaycanı beynəlxalq aləmdə gözdən salmaq, özlərinin törətdikləri cinayətləri ört-basdır etmək üçün xüsusi proqramla hərəkət edir: "Ermənistanın Avropada və dünyada təsirli güc kimi lobbiçilik fəaliyyətindən istifadə edəcəyi gözlənilən idi. Ancaq onların "əsir və girovlarla" bağlı hay-küyünü hüquqi müstəviyə çıxarmaq təşəbbüsləri uğur gətirməyəcək. Ermənilərin "əsir və girov" saydıqları şəxslər Azərbaycan qanunlarını pozan terrorçulardır və qanuni məhkəmələrimiz tərəfindən cəzalandırılıblar. Beynəlxalq məhkəmələrin fərqli hökm verməyi hüquqi baxımdan mümkünsüzdür. Ermənilər öz əməllərini bizim adımıza yazmağa çalışırlar. Amma əllərində heç bir dəlil-sübut, fakt yoxdur. Halbuki, ermənilərin 30 il ərzində Azərbaycanın işğal bölgəsində törədikləri vəhşiliklərin hamısı sənədləşdirilib. Bütün sübutları beynəlxalq məhkəmələrə çıxartmalıyıq. Vurulan zərərə görə təzminat davaları açmalıyıq. Əslində Ermənistan bundan narahat olduğu üçün bir növ "qabaqdan gəlmişlik" edir. Məsələ isə ondadır ki, biz də bu işdə gecikirik. Xarici siyasətimizdə əsas hədəf Ermənistanın üzərinə getmək olmalıdır. Əlimizdə kifayət qədər dəlillər var ki, Ermənistan məhkum olunsun və milyardlarla dollar təzminat ödəmək məcburiyyətində qalsın".

# Razılaşmağa bir addım qalıb, amma...

Daxili və xarici güclər Paşinyana təzyiq göstərir



**Erməni xalqından ikinci dəfə mandat alan Baş nazir Nikol Paşinyanın imkanları var ki, 10 noyabr və 11 yanvar razılaşmalarının tələblərinə əməl etsin. İndiki şəraitdə bəyanatlarda göstərilən müddəaların icrası üçün fürsət yaranıb. Artıq İrəvan hökuməti özü də anlayır ki, çıxış yolu Azərbaycanla və Türkiyə ilə əməkdaşlıq yolunu tutmaqdadır.**

Baş nazir siyasi kursunu reallaşdırmaq üçün Koçaryan-Sarkisyan cütlüyünə qarşı sərt qərarlar verməlidir

Paşinyanın son günlər yumşaq ritorika sərgiləməsi, regional əməkdaşlıqdan danışması bunun bariz nümunəsidir. Problem isə ondadır ki, Ermənistanda Baş nazir Nikol Paşinyan hökumətinin addımlarına qarşı çıxan, əhalini revanşist əhval-ruhiyyəyə kökləməyə çalışan "Qarabağ klanı" var. Ermənistan parlamentində təmsilçilik hüququ qazanan revanşistlər ümumi siyasi kursa hansısa formada təsir göstərmək imkanına sahibdirlər. Onlar öz planlarını dəstək aldıqları Rusiya vasitəsi ilə həyata keçirirlər. İstənilən halda revanşist qüvvələr və radikallardan fərqli olaraq Paşinyan balanslı siyasət apara bilər. Ermənistanın inkişafı mövcud reallıqları, müharibənin nəticələrini qəbul etməklə mümkündür. Hər şeydən öncə İrəvan Azərbaycanın, Türkiyənin sərhədlərini tanımalı, delimitasiya və demarkasiya məsələlərini həll etməlidir. Yalnız ondan sonra bu ölkənin hansısa perspektivindən danışmaq olar.

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Paşinyanın açıqlamalarından İrəvanın müəyyən praqmatik addımlar atmaq niyyəti görünür.** Amma problem ondadır ki, bir çox riskləri gözə alan Ermənistanın yaxın müddətdə pozitiv addımlar atacağı ehtimal edilmir: "Ölkə daxilində siyasi böhran yaşanmaqdadır və problemlər tam həllini tapmayıb. Rusiyayönlü qüvvələrin, əsasən də "Qarabağ klanı"na məxsus şəxslərin Türkiyə və Azərbaycanla əməkdaşlığından danışan Nikol Paşinyana təzyiq imkanları tükənməyib. Baş nazir siyasi kursunu reallaşdırmaq üçün öncə Koçaryan-Sarkisyan cütlüyünə qarşı sərt qərarlar verməlidir. Bu iki şəxs gecikmədən həbs edilməli, törətdikləri cinayət əməlləri cəmiyyətdə ifşa olunmalıdır. Paşinyana səs vermiş kifayət qədər insan var. Baş nazir arxasındakı gücdən düzgün istifadə etməyi bacarmalıdır. Xalqdan dəstək alarsa, tezliklə Azərbaycanla sərhəd məsələsini həll edər, Türkiyə ilə sərhədləri də açar. Əks halda quru bəyanatlar verməkdən o yana keçməyəcək".

**İsmayıl Qocayev**

# Talışların adından istifadə etmək istəyirlər

## Əhəd Məmmədli: "AŞ-yə göndərilən hesabatdan talışların əksəriyyətinin xəbəri yoxdur. Ümumiyyətlə, talışların hüquqları barədə danışmağa haqları çatmır"



**Azərbaycan Talışların İctimai Şurası (ATİŞ) talışların hüquqlarının qorunması barədə Avropa Şurasına (AŞ) hesabat göndərib. Həmin hesabatda deyilir:**

"Talışlar xalq olaraq Azərbaycan hökuməti tərəfindən tanınmır. Hökumət talışlara münasibətdə faktiki olaraq onları tezliklə assimilyasiya etmək siyasəti yürüdür. "Talış" adı qadağa altındadır. Ölkədə talış adında heç bir QHT qeydə alınmır. "Talış" sözü Azərbaycan parlamentində və səlahiyyətli şəxslərin nitqlərində tələffüz edilmir".

**Məsələyə kəskin reaksiya verən "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı qeyd edib ki, Azərbaycan talışlarının İctimai Şurası adlı qondarma qurum İranın və Rusiyanın növbəti təxribat planından biridir. Baş yazarın sözlərinə görə, Ermənistana daşıdıqları neft, ərzaq, silah-sursatın Azərbaycan cəmiyyətində doğurduğu qıcığa qarşı atılır:**

"Bu mövzu təsadüfi deyil, Azərbaycanda yaşayan talışlara da aidiyyəti ola bilməz. 44 günlük Vətən savaşında da bunu göstərdilər, türklərlə, ləzgilərlə, tatlarla, kürdlərlə bir yerdə, bir səngərdə düşmənlərə qarşı döyüşdülər, Azərbaycanın bayrağını uca tutdular. İranın əlindən Nardaran faktoru çıxıb, indi başqa etnik amildən yararlanıb, nələrsə etməyə başlayırlar. Alınası iş deyil. Yalançı statistikalar, böhtan dolu açıqlamalar da buna hesablanıb. Azərbaycanda heç bir dini, etnik ayrı-seckilik yoxdur. Azərbaycanın cənub bölgəsində isə türklər kifayət qədərdir, hamısı talış deyil".

**Son zamanlar talış hüquqları ilə bağlı məsələnin gündəmə gətirilməsinin məqsədli olduğunu söyləyən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə vurğulayıb ki, 1992-ci ildə mərhum prezident Əbülfəz Elçibəy tərəfindən milli azlıqlarla bağlı sərəncam imzalanıb. Bu qərarla Azərbaycandakı bütün millətlərin və milli azlıqların haqları və hüquqlarının qorunması barədə akt qəbul edilmişdi:** "Bundan sonra da milli azlıqların hüquqları qorunurdu. AŞ-yə Azərbaycanla bağlı belə hesabatın göndərilməsinə Qarabağ və Zəngəzur məsələsi, ümumiyyətlə, Ermənistanla münasibətlərdə Azərbaycana bir təzyiq və təsir rıçaqları kimi baxıram. Azərbaycandakı talışlarla bağlı təşkilat dövlətçiliyimizə qarşı fəaliyyətindən başqa heç nə ilə fərqlənməyib. Təşkilatın rəhbəri də bu yöndə fəaliyyətini davam etdirir. Azərbaycan dövləti həmin təşkilata və onun rəhbərinə bir də "göz gəzdirməlidir". Çünki Azərbaycan unitar və balaca ölkədir. Burada bütün millətlər yaşayır, həmin millətlərin hər birinin hüquqları qorunur. Amma bu ölkənin bir dövlət dili var. Digər millətlərin də öz dili var və onlar bu dildə danışırlar, rahat şəkildə millətlərinin adını çəkirlər. Bununla bağlı onlara bu günə qədər hansısa təzyiq olmayıb, olmayacaq da. Ancaq bu mövzunun aktuallaşmasının siyasi sifariş olduğunu düşünürəm".

Ə.Məmmədli qeyd edib ki, Rusiya da ölkəmizə qarşı belə təzyiqlərdən istifadə edir: "Moskvada separatçı qurum və təşkilatlar, onların televiziyaları var. Açıq şəkildə dövlətimizə qarşı fəaliyyət göstərirlər. Təəssüf ki, Azərbaycan bu günə qədər Rusiyaya qarşı etirazını bildirməyib. Lakin dövlətimiz bu məsələlərə ciddi yanaşmalıdır. Azərbaycanda talışlar adlı qurum var, amma talışların çoxusu heç bilmir ki, həmin qurumun fəaliyyəti nədən ibarətdir. AŞ-yə göndərilən hesabatdan talışların əksəriyyətinin xəbəri yoxdur. Ümumiyyətlə, talışların hüquqları barədə danışmağa, AŞ-yə müraciət göndərməyə haqları çatmır".

**Yeganə Bayramova**



**KTMT-yə rəhbərliyin Ermənistana keçməsi formal xarakter daşıyır və heç bir reallığı dəyişdirmir**

# Paşinyanın "ağzı yanıb"

## KTMT Ermənistana 3-4 PUA versə belə heç nə dəyişməyəcək

**"Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının qüvvələri müasir texnika, o cümlədən, Pilotsuz Uçan Aparatla silahlanmalıdır". Bu təkliflə Ermənistanın Baş naziri Nikol Paşinyan Düşənbədə keçirilən sammitdə çıxış edib. Paşinyan bildirib ki, Ermənistanın quruma sədrlik edəcəyi müddətdə İrəvan KTMT, ATƏT və BMT ilə dialoqu nəzərə alaraq, təhlükəsizlik üzrə forumların keçirilməsi praktikasını bərpa etmək niyyətindədir.**

**İsmayıl Qocayev**

*Quruma sədrliyi xüsusi olaraq qabardan baş nazir bəyan edib ki, üzvlər bir-birinə qarşılıqlı yardımı artırmalı, xarici siyasət məsələlərində koordinasiyanı gücləndirməlidir. Paşinyanın sözlərinə görə, quruma üzv dövlətlər maraqlarına toxunan məsələləri razılaşdırılmalıdır:*

"Xarici işlər və müdafiə nazirlikləri səviyyəsində məşvərət iclaslarının keçirilməsinə böyük önəm veririk". Xatırladaq ki, Tacikistanın paytaxtı Düşənbə şəhərində KTMT-nin üçgünlük sammiti keçirilib. Sentyabrın 15-də başlayan toplantıda Rusiya, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Belarus və Ermənistan nümayəndə heyətləri iştirak ediblər. Rusiya Prezidenti Vladimir Putin karantin rejimində olduğundan, iclasa videokonfrans rejimində qatılıb. Təşkilatın növbəti iclası 2022-ci ilin sonunda İrəvanda keçiriləcək.

**Paşinyanın Düşənbədəki çıxışını "Şərq"ə şərh edən BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov deyib ki, KTMT-yə rəhbərliyin Ermənistana keçməsi formal xarakter daşıyır və heç bir reallığı dəyişdirmir.** Siyasi şərhçi bildirib ki, Ermənistanın KTMT-dən gözləntiləri müharibəyə qədər böyük idi. Onlar əmin idilər ki, Azərbaycanın hər hansı müdaxiləsində təşkilat erməniləri qoruyacaq, ən azından çəkindirici addımlar atacaq. Bunların heç biri baş vermədi: "Rusiyanın müəyyən dairələri Ermənistanı arxayın salırdılar. Moskva "bleflə" məşğul idi. "Münaqişə ancaq sülhlə həll edilməlidir", yaxud "Gürcüstanın başına gələnlər digər ölkələrə dərs olmalıdır" tipli bəyanatlar erməniləri əməlli-başlı rahatladırdı. Müharibədən sonrakı dövrdə də KTMT-nin sərhədlərin delimitasiya prosesinə, mövcud gərginliklərə qarışmamasının şahidi olduq. Bir sözlə, Ermənistan hər mərhələdə tək buraxıldı. İrəvanın başını qatmaq üçün quruma müvəqqəti sədrliyi ona həvalə ediblər. Sədrlik Ermənistana təşkilat üzərindən sərbəst idarəetmə səlahiyyəti, ordudan istədiyi kimi istifadə hüququ vermir. Qurum kollegialdır və fəaliyyəti səs çoxluğu ilə mümkündür. Hətta tam razılıq əsasındadır. Bu mənada KTMT Paşinyanın xətrinə Ermənistana üç-beş PUA versə belə yenə dəyişən bir şey olmayacaq. 44 günlük müharibədə Rusiyaya məxsus silahların potensialını gördük".

> "Bölgədə Türkiyə və Pakistan kimi güclü oyunçular gözə dəyir. Görünür, baş nazir müəyyən üsullarla erməni ictimaiyyətini ayıltmağa, həqiqəti onlara göstərməyə cəhd edir"

A.Qasımova görə, Paşinyanın KTMT-yə inamı yoxdur: "Baş nazirin qurumu "əhəmiyyətli" təşkilat kimi qələmə verməsi qurduğu siyasi oyunun tərkib hissəsidir. Paşinyan çalışır ki, ölkədə KTMT-yə, dolayı yolla Moskvaya olan inamı tədricən azaltsın. Hətta bir müddət sonra müraciətlərə cavab verilməməsini əsas gətirərək Ermənistanın qurumdan çıxmasını belə gündəmə gətirə bilər. Regionun siyasi mühitinə nəzər saldıqda, bölgədə Türkiyə və Pakistan kimi güclü oyunçular gözə dəyir. Görünür, baş nazir müəyyən üsullarla erməni ictimaiyyətini ayıltmağa, həqiqəti onlara göstərməyə cəhd edir".

# Tehran, Moskva narahatdır

## Rusiyanın üstünlüyünə imkan verməк olmaz



## *Azərbaycan sərhəd məsələsində Ermənistanla birbaşa dialoq qurmalıdır*

**"Moskva Bakı və Yerevana Azərbaycan-Ermənistan sərhədinin delimitasiya və demarkasiyası prosesinə dair təkliflərini verib və "cavab gözləyir". Bu ifadələr Rusiyanın Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova tərəfindən səsləndirilib. XİN sözçüsü Moskvanın Ermənistanla Azərbaycan sərhədindəki vəziyyəti yaxından izlədiyini vurğulayıb. Onun sözlərinə görə, Rusiya Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiya və demarkasiya prosesinin sürətlənməsinin zəruriliyini anlayır: "Rusiyanın bununla bağlı təklifləri həm Bakıya, həm də İrəvana təqdim edilib. Biz gələcək kursun formalaşdırılması üçün tezliklə cavab gözləyirik".**

**İsmayıl Qocayev**

Zaxarovanın sözlərinə görə, Rusiya tərəfi üçtərəfli razılaşmaların icrasına müvafiq olaraq bölgədə iqtisadi və nəqliyyat əlaqələrini paralel inkişaf etdirmək üçün Azərbaycan və Ermənistanla birgə səylərini davam etdirəcək. Məlumdur ki, bir neçə gündür ki, Ermənistanın Gorus-Qafan avtomobil yolunun Azərbaycandan keçən hissəsində İran nömrəli yük maşınları saxlanılır və onlardan rüsum tələb olunur. Üç gün öncə Azərbaycan polisi bu yolda İrandan gələn iki yük maşınının sürücüsünü saxlayıb. Daxili İşlər Nazirliyi sürücülərin Ermənistandan qanunsuz yollarla Azərbaycan ərazisinə keçdiyini bildiriblər.

**Mariya Zaxarovanın açıqlamasını "Şərq"ə analiz edən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, Moskvanın sərhədlərin delimitasiyası ilə bağlı son günlər səsləndirdiyi ardıcıl bəyanatlar bir sıra mətləblərdən xəbər verir.** Analitik bildirib ki, Azərbaycanın Gorus-Qafan yolu üzərində post qurması, İrandan gələn maşınları saxlaması Ermənistanla yanaşı, Rusiya və İranı da ciddi narahat etməkdədir: "Moskva israrla bəyan edir ki, sərhədlərin delimitasiya prosesi yekunlaşmalıdır. Bunun üçün tərəflərə təkliflər verdiklərini vurğulayırlar. Əsas məsələ sərhədlərin konkret hansı xəritələrə əsasən müəyyənləşməsidir. Sovet dövrünün xəritələrində iki ölkənin sərhəd xətləri nisbi də olsa müəyyən olunmuşdu. Sözün açığı, indiki Rusiyanın Azərbaycan-Ermənistan sərhədində nə qədər ədalətli və obyektiv olacağı bizim üçün şübhəlidir. Kremlin ermənilərin mövqeyini müdafiə etməsi sirr deyil. Rusiya sərhəd mövzusunda özünü prosesə cəlb etməklə tərəflər üzərində üstünlük əldə etməyi planlayır. Bu isə problemin həllini istəmək deyil".

*S.Hümbətov vurğulayıb ki, Azərbaycan sərhəd məsələsində Ermənistanla birbaşa dialoq qurmalı, üçüncü tərəfin vasitəçiliyinə imkan verməməlidir. Xüsusən, Rusiyanın vasitəçiliyinə qətiyyən şərait yaratmamalıyıq:* "Təcrübə göstərir ki, Moskvanın burnunu soxduğu heç bir problemin həlli mümkün olmayıb. Əksinə, məsələ daha da gərginləşir və həlli uzanır. Rusiyanın Bakıya təkliflərinə gəldikdə isə Moskva İrəvanı nəyəsə razı salmaq müqabilində Azərbaycandan Qarabağdakı "sülhməramlıları"nın mandatının müəyyən olunmasını istəyə bilər. Kreml üçün "sülhməramlıların" statusunun müəyyənləşməsi vacibdir. Yaxud rəsmi Bakıdan təminat almaq istəyir ki, Azərbaycan Laçın dəhlizində hansısa post qurmayacaq. Hər halda Rusiyanın istəklərindən asılı olmayaraq, rəsmi Bakının mövqeyi və tələbi bəllidir. Sərhəd məsələsi sovet dövrünün xəritələri əsasında olmalı və atılan addımlar ədalət prizmasından kənara çıxmamalıdır. Düşünürəm ki, bu məsələdə Türkiyə ilə birlikdə hərəkət etməyimiz daha məqsədəuyğun olardı".



# Xankəndidəki ermənilərə işığı, qazı, pensiyanı biz verməliyik

## Əslində onlar da bunları istəyirlər, çünki rifahları pisdir

**Kənan Novruzov**

**REAL Partiyasının icraçı katibi Natiq Cəfərli Azərbaycanın Xankəndi və ətrafında yaşayan vətəndaşlarımızın elektrik enerjisi, qaz və su ilə təminatını öz üzərinə götürməli olduğunu deyib.**

Onun sözlərinə görə, Ermənistandan gələn xətlər kəsilməli, əvəzində "Azəriqaz", "Azərsu", "Azərenerji" Xankəndi və ətrafına yeni kommunikasiya xətləri çəkməli, erməni əsilli vətəndaşlarımızı həmin xətlərə qoşmalıdır: "Sayğacların quraşdırılması və əhalinin siyahıya alınması baş verməlidir, ödənişlər üçün Xankəndi və digər yaşayış məntəqələrimizdə ödəniş aparatları qurulmalı, manatla ödənişlərin qəbuluna başlanmalıdır. Hətta Xankəndi və ətrafında yaşayan təqaüd yaşında olan erməni əsilli vətəndaşlarımıza pensiya ayrılmalı, onlara bank kartları paylanılmalı, ərazidə bankomatlar quraşdırılmalıdır. Belə addımlarla Xankəndi və ətrafında yaşayan erməni əsilli vətəndaşlarımızı ölkənin kommunikasiya xətlərinə və maliyyə sisteminə inteqrasiya edilməsinin başlanğıcı olacaq. Əgər Ermənistandan qeyri-qanuni gələn xətlər kəsiləcəksə, orada yaşayan insanların bizim sistemə inteqrasiya olmaqdan başqa çarələri qalmayacaq".

N.Cəfərli qeyd edib ki, elektriki, qazı kimin təmin etməsi Moskvaya fərq etmir:

"Biz erməni əsilli vətəndaşlarımızı dışladıqca, onlar rusun qucağına daha bərk oturacaq və onları o qucaqdan qoparmaq mümkünsüz olacaq. Zatən Kreml o qondarma qurumu de-fakto tanıyıb. Biz aktiv olmasaq, məqamı gəlsə, "rusməramlıların" burnu biz tərəfdən qanasa, həmən "de-jure" də tanıyacaqlar. Bunu istəyirsiniz?!".

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi şərhçi Tural İsmayılov "Şərq"ə açıqlamasında təklifə münasibət bildirib:** "Əlbəttə, Xankəndidə yaşayanlar Azərbaycan vətəndaşlarıdırlar. Bunu Prezident İlham Əliyev də dəfələrlə deyib. Dövlət başçısı bildirib ki, soydaşlarımıza qarşı cinayətdə iştirak etməyən ermənilər Azərbaycanın şəxsiyyət vəsiqəsini əldə edə bilərlər. Əslində Xankəndidə yaşayan ermənilər də bunu istəyirlər. Çünki rifahları pisdir. Fikrimcə, üçtərəfli razılıqdakı şərtlər yerinə yetirildikdən, o cümlədən Qarabağdakı ermənilər oradan çıxarıldıqdan sonra istəyən ermənilərin Azərbaycana inteqrasiyası mümkün olacaq. Biz multikultural dövlətik. Amma Xankəndidə hazırda separatçıların olduğunu nəzərə alsaq, fikrimcə, belə addımları indidən atmaq tezdir".

# Xivə, Bursa və növbə Şuşanındır

## Ən gözəl şəhərimiz 2023-cü ildə türk dünyasının paytaxtı elan olunacaq







**Sabir Rüstəmxanlı:** "Mən inanıram ki, bu təklif birmənalı şəkildə türk dünyası ölkələri tərəfindən dəstəklənəcək"

**Almaz Ülvi Binnətova:** "Bu, türk dünyasının sarsılmaz birliyini, qardaşlığını göstərir"

Mələhət Rzayeva

**Şuşanın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı"na namizədliyi təqdim edilib. Bu barədə Mədəniyyət naziri Anar Kərimov "Twitter"də paylaşım edib. Özbəkistanın Xivə şəhərində keçirilən Türksoyun 38-ci nazirlər iclasında iştirak edən A.Kərimov ölkəmizin təşkilatla əməkdaşlığından, Qarabağda tarixi və mədəni abidələrin dağıdılmasından,Vətən müharibəsindən danışıb. O, Şuşanın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı"na namizədliyini təqdim etdiklərini bildirib.**

Qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında bu il may ayının 7-də sərəncam imzaladı. Şuşanın təkcə mədəniyyətimizin deyil, mənəviyyatımızın paytaxtı - baş tacı, istinad nöqtəsi olması zatən bəllidir. Lakin dövlət səviyyəsində imzalanan sərəncam artıq rəsmi sənəddir və dünya durduqca bu tarixi gerçəkliyi özündə əsk etdirir. Şuşanın Türk dünyasının mədəniyyət paytaxtına namizədliyinin irəli sürülməsi isə Şuşanı artıq bütün dünyada mədəniyyət beşiyi kimi tanıdacaq; türk dünyası bütün dünya deməkdeyilmi ki?!.

**Bu xoş xəbərlə bağlı fikrini soruşduğumuz Xalq şairi, Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü, millət vəkili Sabir Rüstəmxanlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, Şuşa ilk növbədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən mədəniyyətimizin paytaxtı elan edilib:**

- Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşaya səfəri zamanı bu fikri səsləndirdi. Şuşa türk dünyasına - bütün dünyaya dahi şəxsiyyətlər bəxş edib. Üzeyir bəy, Bülbül, Niyazi, Əhməd bəy Ağaoğlu... saymaqla bitməz bu adlar. Bir müddət əvvəl bilirsiniz ki, Şuşada Vaqif Poeziya Günləri keçirildi, Vaqifin erməni vandalları tərəfindən dağıdılmış, lakin dövlətimiz tərəfindən yenidən bərpa edilən məqbərəsinin açılışı oldu. Vaqif poeziyasının türkmən, özbək ədəbiyyatına böyük təsiri olub, bu təsir türk poeziyasında daim duyulub. Baxmayaraq ki, Şuşa ermənilər tərəfindən vandallığa məruz qaldı, şəhər sürətlə bərpa edilir. Şuşanın türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi təkcə şəhərin o tarixə qədər bərpası ilə məhdudlaşmır. Bu həm də mənəvi dəstəkdir. Türk dünyasının Azərbaycana Qarabağ məsələsində, torpaqlarını işğalçıdan azad etməsində, haqlı davasında göstərilən böyük mənəvi dəstəkdir. Türk dünyasında mədəniyyət paytaxtı elan edilməyə haqqı çatan şəhərlər çoxdur. Səmərqənd, Xivə... Türkiyənin özündə böyük mədəniyyət mərkəzləri var. Amma Şuşanın türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi - mən inanıram ki, bu təklif birmənalı şəkildə türk dünyası ölkələri tərəfindən dəstəklənəcək - bunun arxasında Şuşanın timsalında Azərbaycana dəstək və həqiqətlərin üzə çıxarılması dayanır. Yaxın zamanda Türk dövlətlərinin də toplantısı olacaq, yəqin bu təklif orda da səslənəcək.

Onu da qeyd edək ki, Özbəkistanın qədim şəhərlərindən biri Xivənin 2021-ci ildə "Türk Dünyasının mədəniyyət paytaxtı" olması münasibətiylə bu günlərdə təntənəli mərasim keçirilib.

*Mərasimə qatılan AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətova "Şərq"ə açıqlamasında Xivədəki mədəniyyət günlərinin çox möhtəşəm keçirildiyini bildirdi:*

- Qədim Xivənin İçənqala Memorial Kompleksində şəhərin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi münasibətilə açılış mərasimi oldu. Mərasimdə Özbəkistan Baş nazirinin müavini, Turizm və idman naziri Əziz Abduhakimov, bu ölkənin Mədəniyyət naziri Azadbek Nazarbakov, TÜRKSOY-un üzvü olan digər ölkələrin mədəniyyət nazirləri, TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı, UNESCO Baş katibinin müavini Gabriella Ramos, Türk Akademiyasının prezidenti Darxan Kadıralı, Özbəkistanın ədəbiyyat, mədəniyyət xadimləri və digər şəxslər iştirak edirdilər. Əziz Abduhakimov Xivənin "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmasına görə TÜRKSOY-a minnətdarlıq etdi, bundan sonra TÜRKSOY çərçivəsində əlaqələrin inkişafı istiqamətində daha böyük layihələrin həyata keçirilməsinə əmin olduğunu bildirdi. Bu tədbirdə təkcə türk dünyasının deyil, dünyanın 60-dan çox ölkəsindən gələn 300-dən artıq nümayəndə iştirak edirdi. Bilal Çakıcı isə bildirdi ki, TÜRKSOY-un elan etdiyi "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi ancaq türk dünyasında deyil, bütün dünyada böyük maraq oyadıb. Bu layihəyə hər il maraq artmaqda davam edir. Türk dünyasının qədim şəhərləri "Türk dünyasının mədəniyyət paytaxtı" adına layiq görülməsi üçün bir-biriləri ilə rəqabət edirlər. Hər il türk dünyasının bir qədim şəhərinin mədəniyyət paytaxtı elan olunması xalqlarımız arasında qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə, mədəniyyət və sənət adamlarının daha da yaxından əməkdaşlıq etməsinə zəmin yaradır.

**A.Binnətova vurğuladı ki, Azərbaycan mədəniyyət naziri tərəfindən Şuşanın 2023-cü il Türk dünyasının mədəniyyət paytaxtı olması təklifi prosesin məntiqi davamıdır:**

- 2021-ci ildə Xivə, 2022-ci ildə Bursa, 2023-cü ildə Şuşa! Bu, türk dünyasının sarsılmaz birliyini, qardaşlığını göstərir. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı adını haqq etdiyi kimi türk dünyasının mədəniyyət beşiyi kimi anılmasını da haqq edir. Şuşadakı mərasim də, inanıram ki, çox möhtəşəm olacaq.

# Laçın təlimi: Ruslar da meydanda göründü

Moskva bununla Bakı və Ankaranı mümkün anti-terror əməliyyatından çəkindirmək istəyir



**"Qarabağda müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının dayandıqları bütün postlarda (27 post) "təhlükəsizliyin təmin edilməsi və mümkün pozuntuların qarşısının alınması" adı altında təlimlər keçiriblər". Bu sözləri "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib.**

Ekspert bildirib ki, bu, türk ordusunun işğaldan azad edilmiş ərazilərə gəlişinin anonsu olan Laçın təliminə cavabdır: "Rus sülhməramlılar bundan öncə Laçında təlim keçirdi və dronlara qarşı "döyüş məşqi" etdi. Bakı və Ankara məhz Laçında - rus sülhməramlıların dayandığı dəhlizin bir neçə yüz metrliyində cavab verdi. Ruslar da cavabı gecikdirmək istəmir. Sülhməramlıların "postları"nın erməni terrorçulardan qorunması məşqinin edilmədiyi aşkar məsələdir".

**Analitikə görə, Moskva bununla Bakı və Ankaranı mümkün anti-terror əməliyyatından çəkindirmək istəyir:** "Azərbaycan-Türkiyənin quruda, havada və dənizdə keçirdiyi təlimlər, ardınca Pakistanın da iştirak etdiyi "Üç Qardaş - 2021" xüsusi təyinatlı qüvvələrin təlimlərinin başlanması rusları narahat edir. Moskva anlayır ki, Azərbaycan üçtərəfli razılaşmanın bütün bəndlərinin icrası məqsədilə öz suveren ərazisində hərbi addımlar ata bilər və bu prosesdə tək olmayacaq. Baş verənlər Qarabağda "əsəb müharibəsi"nin getdiyini göstərir. Lakin bu dəfə əsas tərəf ruslardır və bunun nəticəsi hansısa formada olmalıdır".

İsmayıl

# Tacikistanda Rəisi Paşinyanla təmas qurub

Böyük ehtimalla tərəflər Gorus-Qafan yolunu müzakirə ediblər



**İran Prezidenti İbrahim Rəisi və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Bu barədə məlumatı erməni KİV orqanları yayıb. Məlumata əsasən görüş Tacikistanda baş tutub.Görüş zamanı İran Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında fasiləsiz yükdaşımaların təşkilini və bölgədəki vəziyyəti müzakirə ediblər.**

Qarabağa cənub qonşumuzdan ard-arda yüklərin daşındığı əsnada tərəflər arasında görüşün baş tutması diqqət çəkir. Proseslərdən belə görünür ki, Tehran yenə də İrəvana himayəçilik etmək eşqinə düşüb.

**Müzakirələr barədə "Şərq"ə danışan Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Sədrəddin Soltan yüklərin daşınması ilə əlaqədar problemin yarandığını söyləyib:**

"Şübhəsiz, görüşdə ikitərəfli əlaqələr barədə danışılıb. Tərəflər arasında problem var. Bunlardan ən başlıcası ilə Gorus-Qafan yolunun statusu ilə bağlıdır. Azərbaycan və Ermənistan arasında 2020-ci ilin dekabrında əldə olunan razılığa görə sözügedən yoldan üçüncü ölkə, o cümlədən də İran istifadə edə bilməz. Həmin yol həm də bizim ərazimizdən keçir və Ermənistan hakimiyyəti bunu yaxşı anlayır".

**S.Soltanın sözlərinə görə, bundan sonra Tehran və İrəvanın iki yolu var:** "Tərəflər hələ də Gorus-Qafan yolundan istifadə etmək istəsələr, bizim qoyduğumuz şərtləri qəbul etməlidirlər. Həmçinin həmin avtomobillər mütləq yoxlanılmalıdır. Bizim belə bir tələbi irəli sürməyə haqqımız var. Əgər İran razı olmasa, onda alternativ yoldan istifadə edilə bilər. Lakin həmin yol bərbad vəziyyətdədir, dəfələrlə avtoqəzalar olub, maşınlar nasaz hala düşüb".

Kənan

# Almaniya 353 Azərbaycan vətəndaşının sığınacaq müraciətini rədd edib



**Almaniya Federativ Respublikası bu ilin son 8 ayı ərzində 353 Azərbaycan Respublikası vətəndaşının sığınacaq müraciətinə rədd cavabı verib.**

Bu barədə "Report"un Avropa bürosunun sorğusuna cavab olaraq Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarədən (BAMF) bildiriblər. Məlumatda qeyd olunur ki, Azərbaycan Respublikası vətəndaşlarının son 8 ayda daxil olan müraciətlərinin sayı 636-dır. Onlardan yalnız biri sığınacaq hüququ olan şəxs kimi tanınıb.

Məlumata görə, bu dövrdə 24 nəfərə qaçqın, 13 nəfərə isə köməkçi qoruma statusu verilib, 6 nəfərin ölkədən deportasiyası qadağan olunub.

Səkkiz ay ərzində işinə baxılanlardan yalnız 6,9 %-i ümumi müdafiə dərəcəsinə daxil olub, 239 Azərbaycan Respublikası vətəndaşının müraciətinə "işin digər qaydada aparılması" qərarı verilib.

Məlumat üçün bildirək ki, ötən ay ümumilikdə 11 847 əcnəbi Almaniyadan sığınacaq istəyib.

# Çörəyin qiyməti bahalaşıb

Natiq Cəfərli: "Hökumət qiymət artımına birbaşa müdaxilə edə bilməz"



**Azərbaycanda bəzi firmalar çörəyin qiymətini artırıb.**

Bahalaşma əsasən "Nömrə 1" və "Çörəkçi" çörək firmalarının qiymətində müşahidə olunub. "Nömrə 1" çörək zavodunun satış departamentinin müdiri Rahim Nizaməddinov açıqlamasında qiymət artımını təsdiqləyib. Şirkətin nümayəndəsi bildirib ki, qiymət artımının səbəbi əsasən unla bağlıdır. "Unun qiymətindəki artım bahalaşmanın əsas səbəblərindən biridir. O cümlədən, çörək məhsullarının hazırlanmasında istifadə olunan yağ və şəkər tozunun, çörəklərin daşınması üçün istifadə olunan paketlərin qiymətində artım var. Eləcə də, ilin əvvəlində dizelin bahalaşması da çörəklərin daşınma xərclərinin artmasına səbəb olub. Çünki biz məhsullarımızı dizel avtomobilləri ilə marketlərə çatdırır və paylanmasını həyata keçiririk". "Nömrə 1" çörək firmasının 4 növ çörək məhsulunda 10 qəpik, digər çörək növlərində isə 5 qəpiyə yaxın qiymət artımı olub. "Çörəkçi" firmasından isə bildirilib ki, qiymət artımı xammalın bahalaşması ilə bağlıdır: "Un və buğda qiymətində artım maya dəyərini artırıb və bu da qiymət artımı qərarının verilməsinə səbəb olub. Lakin hər mağazanın qiyməti hansı həddə artırdığı ilə bağlı məlumatımız yoxdur". "Nur", "Xırdalan", "Binə və Bakıxanov" və digər çörək firmaları qiymətdə hər hansı artım etmədiklərini bildirdilər".

**İqtisadçı-ekspert, ReAL partiyasının icraçı katibi Natiq Cəfərli bu barədə "Şərq"ə danışarkən çörəyin qiymətinin daim bahalaşdığını bildirib:** "Bu, indiyədək çəkinin azalması yolu ilə həyata keçirilirdi. Amma çörəyin çəkisi o qədər azalıb ki, artıq texniki baxımdan istehsal mümkün deyil. Xaricdən asılılığı nəzərə alsaq, dünya bazarında taxılın qiymətinin artımı bizə də təsir etməli idi. Hökumətin təşviq proqramları və subsidiyaların verilməsi gecikdiyinə görə, qiymət artımının qarşısını almaq mümkün olmadı. Hökumət qiymət artımına birbaşa müdaxilə edə bilməz. Lakin dolayısı yolla, o cümlədən təşviq proqramları, vergi güzəştləri ilə artım tənzimlənə bilər. Nazirlər Kabineti cüzi təşviq proqramı barədə qərar qəbul edib. Ancaq bu, sadəcə gələcəkdə bahalaşmanın sürətini azalda bilər".

Kənan

# "Yeni hakimiyyət cəzasız qalacağına əmindir"



Əlimusa İbrahimov: "Taliban" verdiyi vədləri yerinə yetirmədi"

**Əfqanıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Kari Fasihuddin "Taliban"ın yaxın bir neçə ay ərzində nizami ordu yaradacağını deyib. Avqust ayında ABŞ hərbi kontingenti Əfqanıstanı tərk etmişdi. Öz növbəsində "Taliban" ölkənin bütün böyük şəhərlərini və qonşu dövlətlərlə olan sərhəd keçid məntəqələrini ələ keçirərək iyirmi illik müharibənin bitdiyini elan edib.**

Sentyabrın əvvəlində isə "Taliban" müvəqqəti hökumətin tərkibini açıqlayıb. Əfqanıstandakı yeni hökumətin ard-arda müxtəlif qərarlar qəbul etməsi diqqət çəkir. Yeni "Taliban" hakimiyyətinin uzun ömürlü olacağına bu qədər çox inanır? "Şərq"ə "Taliban"ın gələcək siyasi taleyi barədə BDU-nun professoru, politoloq Əlimusa İbrahimov maraqlı açıqlama verib:

**- Qəbul olunan qərarlara əsasən belə demək olar ki, "Taliban" hakimiyyətinin davamlı olacağından əmindir?**

- Ümumiyyətlə, hakimiyyətə gələn istənilən qüvvə uzun ömürlü olmaq istəyir və bunun üçün çalışır. "Taliban"ın hakimiyyətdə nə qədər qalması isə yalnız onun özündən asılıdır. Hakimiyyətinin ilk dövründə, yəni 1995-2001-ci illərdə həddən artıq radikal qərarlar qəbul etdiyinə, o cümlədən "Əl-Qaidə"yə sığınacaq verdiyinə görə, ABŞ onu devirdi. Amma ya gücü çatmadığına, ya da istəmədiyinə görə "Taliban"ın axırına çıxmadı.

**- "Taliban" bu dəfə hakimiyyətdə daha çox qalmaqdan ötrü nələr etməlidir?**

- Gərək ilk dövrdəki səhvləri təkrarlamasın, o cümlədən qadınlara azadlıq versin, şəriət qanunları qəbul etməsin. Belə olsa, yaxın bir neçə ildə yeni hakimiyyəti tanıyanların sayı artacaq. Əks halda isə hətta xarici müdaxiləyə ehtiyac olmadan "Taliban" devriləcək. Amma sözügedən radikal qruplaşmanın hakimiyyətdə qalmaq üçün bütün imkanları var.

**- "Taliban"ın bu qədər əmin addımlar atması, hansısa qüvvəyə arxayın olması ilə nə qədər əlaqəlidir?**

- Nə ABŞ, nə də İran "Taliban"ı açıq dəstəkləyir. Amma böyük ehtimalla Əfqanıstandakı yeni hakimiyyət cəzasız qalacağına əmindir.

**- Əfqanıstanda niyə məhz "müvəqqəti hökumət" elan edildi?**

- "Taliban" verdiyi vədləri yerinə yetirmədi. Bunu ya bacarmadı, ya da istəmədi. Hər halda ölkədə inkuliv dövlət yaranmadı. Hökumətdə bütün siyasi qüvvələr və millətlər təmsil olunmadı. Qadınlar idarətmədən kənardır. Hakimiyyətdəkilər, demək olar, ancaq puştunlardırlar. "Taliban" bütün bunları nəzərə alıb, işini bildiyinə görə, dediyiniz kimi, "müvəqqəti hökumət" qurdu.

**- Hökumətin adındakı "əmirlik" ifadəsi diqqət çəkir. "Taliban" bununla nə demək istəyir?**

- Bilirik ki, əmirliklərin əraziləri tədricən genişlənir. Amma əlbəttə, "Taliban" bunu indidən açıq deyə bilməz. Sadəcə, nəzərə almaq lazımdır ki, ilk hakimiyyət də əmirlik idi. Əgər bu dəfə eyni idarəetmə forması olmasaydı, "Taliban" islam qaydalarına qarşı çıxmış olardı. İkinci bir tərəfdən, qruplaşma ekspansiya etməyəcəyinə, qonşularının hesabına öz ərazisini genişləndirməyəcəyinə dair söz verib. Vədində səmimidirsə, ola bilsin, gələcəkdə qarşıdurmanın qarşısını almaqdan ötrü belə qərar verilib. Belə ki, gələcəkdə digər millətlər, o cümlədən taciklər, özbəklər də ölkənin müəyyən hissəsini idarə edə bilərlər.

Kənan

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

Aynurə Pənahqızı

“Orta məktəbdə çalışan 155 min müəllimin çox az hissəsi kurikulumdan dərs keçirlər”



# Müəllimlər kurikulumdan istifadəni bacarmırlar

## Ona görə də şagirdləri aşağı nəticələrə görə qınamaq lazım deyil

**Təhsil hər bir dövlətin bel sütunudur. Hər gün, hər saat bu sahəyə diqqət ayrılmalıdır. Ancaq təhsillə bağlı problemlərimiz hələ çoxdur. Zaman isə gözləmir, bu sahəyə diqqətin artırılması bir nömrəli vəzifə olmalıdır.**

Təhsil İnstitutunun direktoru Rüfət Əzizov bildirib ki, məktəblərdə qiymətləndirmə konsepsiyasına yenidən baxılır. O qeyd edib ki, növbəti illərdə kurikulum daha da sadələşdirilə bilər. Ümumiyyətlə, kurikulum bizə nə qazandırdı, nə aldı?

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında deyib ki, kurikulum standartları əsasında hazırlanmış qiymətləndirmə mexanizmləri şagirdlərimizin nitq qabiliyyətini, yazı vərdişlərini, məntiqi təfəkkürünü nəinki inkişaf etdirdi, əksinə, bir çox ziddiyyət və anlaşılmazlıqlar yaratmaqla vəziyyəti bir az da ağırlaşdırdı.** Ekspert diqqətə çatdırıb ki, halbuki, kurikulum dünyanın mükəmməl, inkişaf etmiş ölkələrində qəbul edilən təhsil üsullarından biridir: ”Kurikulum qiymətləndirmə, şəxsiyyətlilik və sair baxımından kifayət qədər üstünlüyə malikdir. Geridə qoyduğumuz 11 il ərzində müəllimlər müasir standartlara uyğun olaraq yeni alətlərdən istifadə etməli idilər. Amma 20 il ərzində müəllimlər yeni sistemdə ənənəvi, köhnə qaydadan hələ də istifadə edirlər. Real vəziyyət budur ki, müəllimlər kurikulum sistemindən, yeni alətlərdən necə istifadə etməyi bacarmırlar, hətta bunu necə edəcəklərini bilmirlər. Ona görə də şagirdləri aşağı nəticələrə görə qınamaq lazım deyil. Hesab edirəm ki, ali məktəbdə tədris proqramları əvvəlcədən müasirləşdirilərək müəllimlərə verilməlidir. Çünki əmək bazarına kadrlar universitetlərdən daxil olur. Əgər istəyiriksə müəllimlər kurikulumu, müasir təhsili, qiymətləndirməni bilsinlər, onda bu proqramı, lazımi resursları ali məktəblərin tədris proqramına salmaq lazımdır. Təsəvvür edin, 2017, 2018 və 2019-cu illərdə kurikulum standartlarına uyğun keçirilən imtahanlarda iştirak edənlərin 70 faizi öz ana dilindən və riyaziyyatdan ”2” qiymətini aldı. Yəni 70 faiz insan minimum suala düzgün cavab verə bilmədi. Demək olar ki, ”5” qiyməti alan olmadı. Bunun səbəbi isə müəllimlərin hələ də kurikulum biliklərini əldə edə bilməməsidir”.

**K.Əsədov əlavə edib ki, məktəb direktorları düzgün tədris prosesi qura bilmirlər:** ”Bu kurikulum standartlarından biri öyrədilən bilik və bacarıqların ”KSQ”lərdə, ”BSQ”lərdə, ”Formativ”lərlə yoxlanılmasıdır. Amma müəllimlər hələ də bunun ənənəvi qapalı test üsulu ilə yoxlanmasını həyata keçirirlər. Halbuki, digər konseptual bacarıqların yoxlanılması müxtəlif test tapşırıqları ilə yoxlanılmalıdır. Amma hələ də müəllimlər kurikulumu qəbul etmək istəmirlər. Çünki düşünürlər ki, bunun üçün pul lazımdır. Yəni hər dərsin hazırlanmasına əlavə vəsait tələb olunur. Həqiqətən də müəllimlər burada haqlıdırlar. Düzdür, müəllimlərin maaşları kifayət etmir ki, kurikulumdan hazırlaşsın. Amma bu o demək deyil ki, onlar kurikuluma hazırlaşmamalıdırlar. Əgər onlar bu sistemdə işləyirlərsə, dövlət onlara maaş verirsə, kağızla, printerlə və s. ləvazimatlarla təmin edirsə, müəllim keyfiyyətli iş ortaya qoymalıdır. Hazırda 4500-dən çox orta məktəbdə 155 min müəllim çalışır. Onların çox cüzi bir hissəsi kurikulumdan dərs keçirlər. Ən bərbad ikinci bir hal ondan ibarətdir ki, sosial şəbəkələrdə müəyyən müəllim qrupları var. Burada ənənəvi üsullarla, yaxud kurikulum üsulu ilə test tapşırıqları hazırlayırlar. Bütün müəllimlər eyni test tapşırıqlarını götürüb kopyalayaraq öz şagirdlərinə işlədirlər. Yəni heç bir əziyyət çəkmək istəmirlər. Dövlət İmtahan Mərkəzinin sədri haqlı olaraq keçirdiyi obyektiv, şəffaf imtahanlarla ortaya bir nəticə qoydu ki, bəli, orta təhsil məktəblərimizdə direktorlarımızın fəaliyyətsizliyi nəticəsində fənn müəllimləri kurikulumu ənənəvi üsulla həyata keçirməyə başlayırlar. Dövlət bu standartın həyata keçirilməsi üçün 30 milyon manatdan çox vəsait xərcləyib. Amma təsəvvür edin ki, 155 mindən çox müəllimimizin, demək olar ki, hamısı kurikulum təlimlərinin iştirakçısıdır. Onlar deyirlər ki, kurikulum kurslarından keçmişik, diplomlarımız, sertifikatlarımız var. Amma ortada olan nəticə odur ki, bizim müəllimlərimiz hələ də kurikulumu başa düşə bilmir, mənimsəyə bilməyiblər. Yoxsa Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu imtahanı üçün mövzu əzbərləyib 3-5 sual yazmaqla kurikulum öyrənmək olmaz. Təhsil Nazirliyinin bir həftəlik 20 manata keçirdiyi kurikulum təlimləri ilə müəllimlərdə bu müasir yanaşmanı formalaşdırmaq olmaz. Düşünürəm ki, məsələnin pis tərəfi ondan ibarətdir ki, müəllimlərimizə 2-3 günlük kurikulum təlimləri ilə kurikulumu mənimsədə bilməzik. Mütləq şəkildə müəllimlərimiz 6 aydan az olmamaq şərti ilə kurikulum təlimlərində iştirak etməlidirlər”.

*Təhsil eksperti vurğulayıb ki, təlimləri nəzəriyyə üzərində yox, praktika üzərində keçmək lazımdır:* ”Müəllimlər üçün kurikulum təlimləri təşkil edən qurumlar inanın ki, ancaq kağız üzərində təlimlər keçirlər. Ən çox da kurikulum təlimləri keçirənlər sertifikat paylamaqla məşğuldurlar. O təlimləri keçənlər kurikulumu dəqiq öyrənmirlər. Hesab edirəm ki, kurikulum təlimlərini Dövlət İmtahan Mərkəzi həyata keçirməlidir. Çünki Dövlət İmtahan Mərkəzi, digər qurumlardan fərqli olaraq, daha peşəkar səviyyədə bu işi təşkil edir. Digər qurumlar isə bunu, sadəcə, formal olaraq həyata keçirirlər. Müəllimlərin biliyi bu qurum tərəfindən yoxlanarsa və yüksək nəticə göstərən müəllimlərə sertifikatlar verilərsə, bu, qısa müddətdən sonra arzuolunan nəticəni ortaya qoya bilər. Ümumiyyətlə, ”Kurikulumu ləğv etmək və ya bu özünü doğrultmadı kimi” ifadələri düzgün hesab etmirəm. Hörmətli təhsil ağsaqqallarımızın bu günlərdə yayılan fikirlərinin geniş izahına ehtiyac var. Müasir dünya təhsili ilə ayaqlaşmaq adına zaman-zaman yeni və innovativ proqramlara müraciət etmək məcburiyyətindəyik. Kurikulum termini proqram sözünün sinonimi kimi qəbul edilib. Ən yaxşı halda demək olar ki, bugünkü proqramlara yenidən baxmaq, günün tələbi ilə ayaqlaşdırmaq lazımdır. Kurikulumu ləğv edək deyərkən nəyi nəzərdə tuturuq? Mənə görə proqram qayət doğrudur. Lakin icrasında hansısa problemlər var və bu da həll olunmalıdır. Bu başqa məsələ... Bu sistemin bu cür olmasının yeganə səbəbi məktəbdə keçirilən təfəkkür yönümlü tədrisin son nəticədə qiymətləndirməsinin düzgün aparılmamasıdır. Həyati bacarıqlara, praktiki biliklərə söykənən dərsi keçən müəllimin şagirdi qəbul imtahanında sadəcə bilikdən imtahan verir. Bunu da görən müəllim valideynin tələbinə cavab vermək üçün dərslikləri kənara atıb ənənəvi bilik yüklü dərsə üz tutur. Bu da ona gətirir ki, kurikulum özünü doğrultmadı”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Davosdakı İqtisadi Forum bir şansdır

## Qarabağdakı quruculuq işlərinə xarici investorları cəlb edə bilərik

**Dünya İqtisadi Forumunun (WEF) illik toplantısı gələn ilin 17-21 yanvar tarixlərində Davosda keçiriləcək. Təşkilatın bəyanatında deyilir: ”Dünya İqtisadi Forumu liderləri 2022-ci ildə İsveçrənin Davos şəhərində keçiriləcək illik toplantıda bir araya gətirməyi planlaşdırır”.**

*Davos İqtisadi Forumunda iştirak edəcək ölkələrin, o cümlədən Azərbaycanın iqtisadi qazanclarını ”Şərq”ə şərh edən iqtisadçı-ekspert Pərviz Heydərov söyləyib ki, hər il Davosda keçirilən Dünya İqtisadi Forumu ənənəvi xarakter daşıyan toplantıdır.*

Ekspert qeyd edib ki, forumda əsasən dünya üzrə mövcud iqtisadi vəziyyət nəzərdən keçirilir, ayrı-ayrı ölkələrin iqtisadi durumu qiymətləndirilir, investorların hansı istiqamətdə növbəti dövr üçün fəaliyyət göstərə biləcəkləri müzakirə edilir və növbəti dövr üçün dünya iqtisadiyyatının inkişaf perspektivləri planlaşdırılır: ”Məlumdur ki, pandemiya ilə bağlı 2020-ci il bütün dünya iqtisadiyyatı üçün çox ağır il oldu. 2021-ci il pandemiyadan normal həyata keçid dövrü xarakteri daşıyır. Bu mənada yanvarda keçiriləcək növbəti Davos İqtisadi Forumunda pandemiya mərhələsi də təhlil ediləcək. Forumda həmçinin növbəti dövr üçün dünya iqtisadiyyatının inkişaf istiqamətləri müəyyənləşdiriləcək”.

Azərbaycan Prezidentinin bütün Davos İqtisadi Forumlarında iştirak etdiyini diqqətə çatdıran iqtisadçı, dövlət başçısının ölkəmizin mövcud iqtisadi vəziyyəti və makroiqtisadi durumu haqqında forumda mütəmadi məlumatlar verdiyini bildirib: ”Eyni zamanda ölkəmizə xarici investorlar da bu forum vasitəsilə dəvət edilib. Prezidentimiz forumların hər birində ölkə qapısının investorların üzünə açıq olduğunu qeyd edib. Qarşıdan gələn Davos İqtisadi Forumunun bizim üçün ən böyük əhəmiyyəti odur ki, Azərbaycan pandemiya şəraitindən necə çıxdığını və bu dövrü böyük itkilərsiz yola verdiyini dünya ölkələrinə, böyük investorlara çatdırmaq imkanı əldə edəcək. Həmçinin dünya iqtisadiyyatına gedən bərpa prosesləri fonunda ölkəmizin də bu ilin may ayından etibarən iqtisadi tənəzzülə son verdiyini çatdırmaqla böyük investorları əmin etmək imkanı əldə edəcəyik. Yəni ölkəmizdəki vəziyyət stabil xarakter daşıyır və əvvəlki kimi sərmayə yatıra bilərlər. Digər məqam odur ki, Azərbaycan 30 ilə yaxın işğal altında olan torpaqlarını azad edib və həmin ərazilərdə böyük yenidənqurma işlərinə başlanılıb. Bərpa işlərində xarici investorlara böyük ehtiyac var. Bu da növbəti iqtisadi forumda diqqətə çatdırılacaq. İndiyə qədərki forumlarda belə yeniliklərimiz yox idi. Növbəti Davos İqtisadi Forumunda bu məqamı dünya iqtisadiyyatının aparıcı qüvvələri qarşısında işıqlandıra biləcəyik”.

**Yeganə Bayramova**

# Zəmanət yoxdur

## Bakı Gorus-Qafan yolunu açmayacaq

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinq keçirib. O bildirib ki, Azərbaycan, Rusiya, Ermənistan liderlərinin üçtərəfli bəyanatlarına uyğun olaraq Rusiya Federasiyası (RF) regionda nəqliyyat və iqtisadi əlaqələrin açılması istiqamətində səylərini davam etdirəcək.**

Rusiya rəsmisinin dediyinə görə, Qarabağ ətrafındakı mövcud vəziyyət Azərbaycanla Ermənistan arasındakı sərhədin delimitasiyasına dair işlərin tezliklə başlanmasını, daha sonra isə sərhədin demarkasiyası zərurətini ortaya qoyur. Zaxarovanın zaman-zaman belə açıqlamalar verməsi məlumdur. Amma deyilən sözlər əməldə təsdiqini tapmır. Rəsmi Moskvanın əməli ilə sözü arasındakı ziddiyəti ”Şərq”ə şərh edən politoloq, siyasi elmlər doktoru Cümşüd Nuriyev bildirib ki, deyilənlərin bizim üçün fərqi yoxdur:

”Rusiya belə açıqlamalarla Azərbaycan və Ermənistana mesaj verir. Bakıya demək istəyir ki, Gorus-Qafan yolu açılmasa, biz



**"Tehrandan Qarabağa yüklərin daşındığını, sülhməramlıların isə buna icazə verdiyini gördük"**

Laçın dəhlizində istədiyimizi edəcəyik. İrəvana verilən mesaj isə for-postu sakitləşdirmək xarakterlidir. Biz bunlara əhəmiyyət verməməliyik. Bakının Gorus-Qafan yolunu açmaq fikri yoxdur. Çünki məhz həmin yol nəzarətə götürüldükdən sonra İranın və Rusiyanın Azərbaycanla bağlı siyasəti bir daha ifşa olundu. Tehrandan Qarabağa yüklərin daşındığını, sülhməramlıların isə buna icazə verdiyini gördük. Qarabağa terrorçuların, silahların daşınmaması barədə kimsə bizə zəmanət verə bilməz. Üstəgəl, yaralı erməni hərbçilərinin İran xəstəxanalarına aparılıb, orada müalicə olunması da istisna deyil”. C.Nuriyev, həmçinin diqqətə çatdırıb ki, indi Kremlin kifayət qədər problemi var: ”Rusiya hakimiyyətinin başı daxildəki Duma seçkilərinə qarışıb. Proseslər Moskvanın Cənubi Qafqazda nəzarəti itirməsinə doğru gedir. Çünki artıq Ermənistan da, Azərbaycan da öz yolunu seçib. Doğrudur, biz qonşularımızla, o cümlədən Moskva ilə qonşuluq münasibətlərinin tərəfdarıyıq. Lakin həm də ərazi bütövlüyümüzün təmin edilməsində israrlıyıq”.

**Kənan Novruzov**

# Tələbə kreditinin müəyyən faizini dövlət geri qaytara bilər

## Rafiq İsmayılov: ”Perspektivdə pulu qaytara biləcəyimi dəqiq bilməsəydim, tələbə və yaxud valideyn olaraq bu addımı atmazdım”



**Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli bildirib ki, oktyabr ayının əvvəli üçün təhsil tələbə kreditlərinin verilməsi planlaşdırılır. Onun sözlərinə görə, bu il 40 minə qədər tələbəyə təhsil kreditləri veriləcək: ”Təhsil tələbə kreditlərindən həm bakalavr, həm də magistrlər yararlana biləcək. Sistemin hazırlanması, banklarla müqavilə, sığorta məsələləri artıq həll edilib”.**

N.Məmmədli bu il ali məktəbə qəbul olan I kurs tələbələrinin qeydiyyat mərhələsində ödəniş etmələri ilə bağlı məsələyə də aydınlıq gətirib. O qeyd edib ki, qaydalara əsasən I kurslar qeydiyyat zamanı təhsil haqlarını ödəməlidirlər: ”Lakin tələbənin kreditlə əlaqəli müraciətinə müsbət cavab veriləcəksə, o zaman həmin vəsait ali təhsil müəssisəsinin bank hesabına köçürüləcək və tələbə ödədiyi vəsaiti geri götürə biləcək. Sistem yenidir və öz qaydasına düşəndən sonra növbəti semestrlərdə kreditlərin verilməsi normal qaydada davam edəcək”.

**Mövzunu ”Şərq”ə dəyərləndirən təhsil üzrə ekspert Rafiq İsmayılov vurğulayıb ki, təhsil kreditlərinin sonradan qaytarılması məsələsi var.**

Ekspertin sözlərinə görə, imkansız ailələrin həmin kreditləri sonra geri ödəyib-ödəyə bilməyəcəklərinə dair çoxlu suallar mövcuddur: ”Tələbələrə təhsil kreditlərinin verilməsi dünyada qəbul olunmuş bir haldır. Ancaq tələbə təhsilini başa vurduqdan sonra həmin məbləği qaytarmalıdır. Ölkəmizdə isə belə bir təminat verilir ki, həmin tələbə universiteti bitirdikdən sonra haradasa işə götürüləcək və maaşından həmin kredit tutulacaq?

Şəxsən mənim imkanım olmasaydı və perspektivdə pulu qaytara biləcəyimi dəqiq bilməsəydim, tələbə və yaxud valideyn olaraq bu addımı atmazdım. Çünki verilən krediti geri qaytarmaq lazımdır.

Amma kreditin müəyyən faizinin dövlət tərəfindən ödənilməsi baş tutsaydı, məbləği rahat qaytarmaq olardı. Bir var 5 min manat ödəyəsən, bir də var ki, dövlət kreditin 50 faizini ödəyir və 2500 manatı qaytarmaq tələbəyə daha rahat olur”.

**Yeganə Bayramova**

# Xaricdən quş ətinin gətirilməsinə məhdudiyyət qoyulub



## Yerli məhsullar daha keyfiyyətli olduğundan quşçuluq sənayesinə diqqət artırılmalıdır

Aynurə Pənahqızı

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən başqa ölkələrdən respublikamızın ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (OIE) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir.** AQTA-dan bildirilib ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) məlumatına əsasən, Polşa Respublikasının Malopolski (Ma?opolskie) vilayətinin Gorlice, Nowy S?cz, Mazovieski (Mazowieckie) vilayətinin Mi?sk, ?uromin, Wo?omin, Piaseczno, Varminsko-Mazurski (Warmi?sko-Mazurskie) vilayətinin Olsztyn, Velikopolski (Wielkopolskie) vilayətinin Szamotu?y, Kalisz, Opolski (Opolskie) vilayətinin Krapkowice, Prudnik rayonlarında baş vermiş yüksək patogen quş qripi xəstəliyinin aktiv və müşahidə fazasında olan epizootik ocaqları mövcuddur, həmçinin Pakistan İslam Respublikasının Pəncab (Punjab) regionunda yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb. Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə OIE-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, qeyd olunan ərazilərdən bütün növ diri quş, quş əti və damazlıq yumurtanın idxalına müvəqqəti məhdudiyyət tətbiq olunub. Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə Polşa Respublikasından və Pakistan İslam Respublikasından gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, ümumiyyətlə, quşçuluq sənayesi ilə məşğul olan müəssisələr ayıqlıqlarını itirməməlidir. Ekspert qeyd edib ki, yerli broyler müəssisələri daxili quş və quş əti məhsullarına olan tələbatı tam ödəyə bilmədikləri üçün xaricdən quş ətinin gətirilməsinə ehtiyac yaranıb: "Qeyd edim ki, xəstəlik köçəri quşlar vasitəsilə yayıldığından mütəxəssislər daimi qışlama yerlərini və quşların müvəqqəti yaşadığı yerləri izləyirlər. Ümumiyyətlə, belə monitorinqlər beynəlxalq agentliklər tərəfindən aparılır və daha sonra hər bir ölkəyə bu barədə məlumat verilir. Təbii ki, bu istiqamətdə ölkəmizdə də daimi işlər görülür. Bu, əhalinin sağlamlığı baxımından çox əhəmiyyətlidir. Ümumiyyətlə, qeyd edim ki, yerli məhsullar daha yüksək keyfiyyətə malikdir. Yəni ətraf mühit xüsusiyyətləri idxal olunan məhsullarla müqayisədə daha yaxşıdır".

## "Nar" qəbul imtahanlarında ən yüksək bal toplamış abituriyentləri mükafatlandırdı



**"Nar" ənənəsinə sadiq qalaraq bu il də ali məktəblərə daxil olmaq üçün qəbul imtahanlarında ən yüksək bal toplamış abituriyentləri mükafatlandırdı.**

Ən yüksək nəticə göstərmiş Əbil Şəfiyev (697,1 bal), Ayxan Kazımov (695,5 bal) və Kamil Əfəndiyevə (692,5 bal) mobil operator tərəfindən müasir smartfonlar, "Nar" nömrələri və hədiyyə kartları təqdim edildi.

"Azerfon"un Baş icraçı direktoru Qunnar Panke ilin uğurlu gəncləri ilə görüşüb və onlara gələcək karyeralarında uğurlar arzulayıb: "Qəbul imtahanlarında on minlərlə gənc arasında ən yaxşı üçlüyə daxil olmağınız münasibətilə sizi təbrik edirəm! Bu böyük müvəffəqiyyət sizin zəhmətkeşliyinizin və savadınızın göstəricisidir. İnanıram ki, bilik və bacarıqlarınızı daha da təkmilləşdirərək öz ixtisasınızın peşəkarları olacaq və daha da böyük nailiyyətlər əldə edəcəksiniz. Sizin kimi gənclərin cəmiyyətin inkişafı və ölkənin tərəqqisi üçün çox faydalı işlər görəcəyinə əminəm".

*Qeyd edək ki, təhsil, maarifləndirmənin inkişafı, gənclərdə oxumaq həvəsi oyatmaq "Nar"ın KSM strategiyasının əsas istiqamətlərindən biridir. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.*



## Sevda paylaşım edib

Səməd Səmədov doğum günündə yad olundu

**Sentyabrın 17-si koronavirusdan dünyasını dəyişən Xalq artisti Səməd Səmədovun doğum günüdür.**

"Şərq" xəbər verir ki, onu doğmaları, dostları unutmayıb. Mərhumla uzun illər birgə çalışan müğənni Sevda Əliqızı da S.Səmədovla bağlı paylaşım edib:

"Əziz dostum, qardaşım bu gün doğum günündür. Çox üzücüdür ki, indi yanımızda deyilsən. Hər zaman qəlbimizdə gülərüz qalacaqsan. Mövludun mübarək, məkanın cənnət, ruhun şad olsun".

**Samirə**

# Şuşa yenə qalib gələcək

## Azərbaycanın incisi "Türk dünyasının mədəniyyət paytaxtı"na namizəddir

**Mədəniyyət naziri Anar Kərimov Özbəkistanın Xivə şəhərində keçirilən TÜRKSOY-un 38-ci nazirlər iclasında Şuşanın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı"na namizədliyini təqdim edib.**



Nazir bildirib ki, iclasda ölkəmizin təşkilatla əməkdaşlığından, Qarabağda tarixi-mədəni abidələrin dağıdılmasından və Vətən müharibəsindən danışıb.

A.Kərimovun təşəbbüsünü "Şərq"ə dəyərləndirən yazıçı-publisist Kərim Kərimli deyib ki, Şuşa yarandığı tarixdən bəri mədəniyyət mərkəzidir:

"İncəsənətin bütün sahələrinin təşəkkül tapdığı, inkişaf etdiyi bir məkan olub. Şuşa işğal olunduqdan sonra erməni vandalizminə məruz qalıb. Bu üzdən 29 illik də olsa, həmin statusu itirib. Çox şükür azadlığına qovuşdu və Prezident İlham Əliyev bu şəhəri mədəniyyət paytaxtı elan etdi. Bakı Azərbaycanın inzibati-siyasi paytaxtıdırsa, Şuşa da mədəni mərkəzidir. A.Kərimovun təşəbbüsünü alqışlayırıq. Əminəm ki, Şuşa namizədlər içərisində qalib gələcək, türk dünyasının mədəniyyət paytaxtı elan olunacaq. Fikrimcə, bu statusu daşıdığı müddətdə Şuşanın bütün dünyada tanınması üçün çalışacağıq. Beləliklə 2023-cü ilə qədər ən gözəl şəhərlərdən birinə çevriləcək. Hazırda orada ciddi bərpa-təmir işləri aparılır. Avqust ayının sonlarında Molla Pənah Vaqif məqbərəsinin, Üzeyir Hacıbəylinin büstünün, Bülbülün ev muzeyinin açılışı oldu. Həmçinin ölkə başçısı yeni yaşayış kompleksinin təməlini qoydu. İnanıram ki, tezliklə Şuşanı dünyaya süper modern, tarixiliklə müasirliyin vəhdət təşkil etdiyi, mədəniyyətin çiçəkləndiyi bir şəhər kimi görəcəyik. Bu, bizim üçün bir hədəf, məqsəddir".

**Samirə**

## Qarabağın dirçəlişində sənin də töhfən olsun!

Azercell abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna birbaşa ianə imkanı yaradıldı

**"Azercell Telekom" MMC Qarabağın dirçəliş prosesində iştirak edib, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində görüləcək tədbirlərə dəstək olmaq istəyən abunəçilərinə Qarabağ Dirçəliş Fonduna ianə etmək üçün xüsusi imkan yaradıb.**

Sadəcə bir SMS-lə Qarabağda bütün sahələrdə bərpa-quruculuq və abadlıq işlərinin aparılması üçün Fonda ianə etmək mümkündür.

Abunəçilər mobil telefondan 8112 qısa nömrəsinə 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazıb SMS göndərməklə öz balanslarından 1 AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN məbləğində ianə edə bilərlər.

SMS-lərin göndərilməsi üçün abunəçilərdən xidmət haqqı tutulmur!

Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsi və sərmayələrin cəlb edilməsi istiqamətində fəaliyyət göstərir. (https://qdf.gov.az)

"Azercell Telekom" MMC abunəçiləri üçün bu imkanı yaratmaqla hər kəsi Qarabağda aparılan quruculuq işlərini dəstəkləməyə, bu mühüm missiyanın bir parçasına çevrilməyə çağırır.

# "Birinci həyat yoldaşımı sevmirdim"

## Şəbnəm Tovuzlu ilk evliliyinin uğursuzluğundan danışıb



**Müğənni Şəbnəm Tovuzlu "TV Müsavat"a açıqlamasında həyat yoldaşından ayrılması ilə bağlı xəbərlərə aydınlıq gətirib.**

"Şərq"in məlumatına görə, sənətçi ilk evliliyi uğursuz olsa da, sonra doğru insanla qarşılaşdığını söyləyib:

"Tanışlığımızdan öncə evim, maşınım, populyarlığım var idi. Lakin düşündüm ki, ömrümün sonuna qədər onunla addımlaya bilmərəm, onda gələcəyimi, sonumu görmürəm. Şəxsən özüm ayrılmaq qərarına gəldim. Qarşı tərəf barışmaq üçün çox cəhd etdi, razılaşmadım. Qeyd edim ki, sevmədiyi adamla maddiyata görə yaşayan xanımlar var. Döyülməyinə, söyülməyinə baxmayaraq ayrılmır.

Onlar mənim qəbul etmədiyim həyatı özlərinə yaraşdırıblar. Mən isə bunu özümə rəva bilmədim. Bizim aramızda həmişə qarşılıqlı sevgi olub deyə hər şey öz yerindədir. Onu da deyim ki, ikinci dəfə seçimimi düzgün etdim.

Birinci həyat yoldaşımı sevmirdim, bir xanım kimi ona sığınmışdım. Şiddət, xəyanət qızımın atasından ayrılmağımın səbəbi deyildi. Sadəcə populyar olmaq, hər kəs kimi gözəl yaşamaq, övladımın qarşısında boynu bükük qalmamaq, ona yüksək səviyyədə təhsil vermək istəyirdim. Xoşbəxtəm ki, qızımı dilədiyim kimi böyütdüm, tərbiyəli övlad oldu. Əziyyətimi itirmədi, universitetə qəbul olundu".

**Samirə**


Elan

Aslanova Şəhla Mirəskər qızının adına verilmiş Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Anesteziologiya reanimatologiya kursu üzrə 0018172 saylı Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.



**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


## HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Şabran rayon Dəvəçi Bələdiyyəsinin 15.09.2021-ci il tarixli, 167 saylı sifarişi ilə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Reyestri Xidmətinin 5 saylı Xaçmaz Ərazi İdarəsi tərəfindən təsdiq edilmiş texniki pasportda (inventar 304012001087-06201) göstərilən texniki göstəricilərə malik Şabran rayonu, Dəvəçi kəndi ərazisində yerləşən qeyri-yaşayış sahəsi (hamam binası) üzərindəki hüquqlar açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 24 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 15.000 (on beş min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 750 (yeddi yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

Qax rayon İcra və Probasiya Şöbəsinin 17.09.2021-ci il tarixli, 2031/1 saylı sifarişi ilə "Nahid-2019" MMC-yə məxsus 1 (bir) ədəd stomatoloji kreslo və 1 (bir) ədəd sterilizator (avtoklav) açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 27 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti stomatoloji kreslo - 600 (altı yüz manat); sterilizator (avtoklav) - 1.200 (bir min iki yüz) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni stomatoloji kreslo üzrə - 60 (altmış) manat; sterilizator (avtoklav) üzrə - 120 (yüz iyirmi) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

*Hərracın təşkilatçısı*
*"Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1711



## Yeni faktlar üzə çıxıb

Bayden ailəsinin kölələri olub

**ABŞ Prezidenti Co Bayden və ailəsi haqqındakı kitabda Baydenin atası və babasının kölələri olduğu qeyd edilib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, ABŞ prezidentinin atasının 14 yaşında uşaq kölesi olub.

Jurnalist Ben Skerçinqin "Politico" adlı kitabında Baydenin babası, Katolik İrlandiya kökləri ilə fəxr edən Jesse Robinettin 1800-cü illərdə Merilenddə iki kölə sahibi olduğu yazılıb. Baydenin digər babası Tomas Randlenin də 1850-ci ildə Baltimorda bir uşaq köləyə sahib olduğu söylənilir.

**Yeganə**

## Vəsiyyət 90 il gizli qalacaq

Bu haqda məhkəmə qərar verib



**İngiltərə Yüksək Məhkəməsi Kraliça II Yelizavetanın həyat yoldaşı, iyun ayında 99 yaşında vəfat etmiş şahzadə Filippin vəsiyyətnaməsinin kral ailəsinin heysiyyatını qorumaq üçün ən azı 90 il gizli saxlanmasına qərar verib.**

"Milliyyet.com"da yer alan məlumatda bildirilir ki, bu barədə yerli mediaya açıqlamasında prokuror McFarlane məlumat verib. Prokuror məhkəmənin şahzadə Filippin vəsiyyətinin möhürlənməsi, surətinin çıxarılmaması və ya məhkəmə sənədləri arasında saxlanması haqqında qərar verdiyini bildirib. Məhkəmə eyni zamanda şahzadənin mirasının dəyərinin açıqlanmamasına və vəsiyyətnamənin təsdiqi sənədində də yer almamasına qərar verib. Vəsiyyətnamənin təsdiqi üçün də ən azı 90 il keçməlidir. Qeyd edilir ki, kral V Georgenin həyat yoldaşı kraliça Mariyanın qardaşı şahzadə Francis kral ailəsi içində vəsiyyəti gizli saxlanılan ilk şəxsdir. Həmçinin II Yelizavetanın anası, kraliça Yelizaveta və bacısı Marqaretin də ölümlərindən sonra vəsiyyətləri möhürlənmişdi.

**"Şərq"**



# "Novovirus" gəldi

"Korona"dan daha sürətli yayılır

Məlahət Rzayeva

**Koronavirusa indi də novovirus əlavə olundu. Son 10-15 gündə qarın ağrısı, qusma və ishal əlamətləri ilə xəstəxanalara gətirilən uşaqların sayındakı artım mütəxəssisləri narahat etməyə başlayıb. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, alimlər "gərəkən tədbirlər alınmazsa, "koronavirusdan daha təsirli və güclü olan" bu virusun növbəti pandemiyaya səbəb olacağı barədə xəbərdarlıq edir.**

Məhv edilməsi çox çətin olduğu deyilən yeni virusa qarşı hansı önləmlər alınmalıdır? Yoluxma və Mikrobioloji Xəstəliklər üzrə mütəxəssis Gökçe Demir və Uşaq Xəstəlikləri mütəxəssisi Akif Çelik yeni virusun xüsusiyyətlərindən və onunla mübarizənin necə aparılmasından danışıb. "Novovirus" hansı əlamətlərlə özünü büruzə verir? G.Demir bu barədə danışaraq bildirib ki, virusun inkubasiya dövrü 2-3 gün davam edir. Sonra anidən başlayan qarın ağrısı və ürək bulanmasıyla davam edir. İshal və qusma da xəstəliyi müşayiət edir. Virusa yoluxanlarda gün ərzində 3-8 dəfə sulu nəcis müşahidə edilir. Hərarətin azacıq yüksəlməsi də ola bilər. Bir neçə gün ərzində sağalma mümkündür. Lakin azyaşlılarda, uşaqlarda və immuniteti zəif olanların sağalması daha uzun zaman ala bilər. Uzman doktor A.Çelik isə qeyd edib ki, "Novovirus" 1968-ci ildə Amerikanın Ohio əyalətində pandemiyaya səbəb olub və bununla tibb aləmində tanınıb. İshal zamanı orqanizm su itkisinə məruz qaldığı üçün virusa yoluxanlarda baş ağrıları, halsızlıq, yorğunluq özünü göstərə bilir. Doktor bildirib ki, "Novovirus" nəcisdən nümunə alınması və PCR üsulu ilə müəyyənləşir. Mütəxəssis tövsiyə edir ki, valideynlər övladlarında bu əlamətləri gördükdə və ya uşağın virusa yoluxduğundan şübhələndikdə onlara bol miqdarda su içirtməli, təmizliyə riayət etməlidirlər. Əgər uşaqda gün ərzində 7-8 dəfədən çox sulu nəcis olarsa, valideyn həkimə müraciət etməlidir. Bu zaman uşaqlarda qusmanın qarşısını almaq üçün serumlardan istifadə edilməlidir. Həkim qeyd edib ki, məktəblərin açılmasıyla uşaqlar arasında "Novovirus"a yoluxma sayının artacağından ehtiyatlanırlar. Virus insanların təmasıyla baş verdiyi üçün uşaqların eyni ortamda olması təhlükəni artırır. Buna görə də hər bir uşağın şəxsi gigiyenasına diqqət edilməli, təmizlik məsələlərinə ciddi yanaşılmalıdır. Mütəxəssis "Novovirus"un koronavirusdan daha uzun müddət - 1 ay canlı qaldığını da deyib. Bu da "Novovirus"u koronavirusdan fərqləndirən əsas cəhətdir. Səth üzərində qidalarda da bu virus 2-3 həftə canlı qalır. Ona görə də uşaqların əllərini tez-tez yumasına, uşaqların sendviç kimi kütləvi qidalardan uzaq durmasına diqqət edilməlidir. Bu, koronavirusdan daha güclü virusdur. Koronavirus xarici aləmdə dayanıqsız, "Novovirus" isə dayanıqlıdır. Həkim xüsusilə, koronavirusa qarşı istifadə olunan peyvəndlərin "Novovirus"a qarşı təsirsiz olduğunu da deyib və səbəbini də belə izah edib ki, bunlar fərqli viruslardır.

### Tədbirlər görülməsə "Novovirus" növbəti pandemiyaya səbəb olacaq



## İstədiyi mahnını oxumadılar

Kazinoda müştəri dava salıb



**Dənizlidə əylənmək üçün getdiyi kazinoda istədiyi mahnının oxunmamasını görən müştəri dava çıxarıb.**

Bu barədə "Şərq" "Haberglobal"a istinadən xəbər verir. Bildirilir ki, 43 yaşlı Nuri G.bir müddət spirtli içki qəbul etdikdən sonra musiqiçilərə mahnı sifariş verib. Onlar mahnını oxumaqdan imtina ediblər. Bunun ardınca müştəri hesabın çox olduğunu əsas gətirərək işçilərin üstünə hücum çəkib. Mühafizə işçiləri onu zorla çölə çıxardıqdan sonra sərxoş kişi tapança obyektə və obyekt sahibinə altı dəfə atəş açıb. Obyekt sahibinə bir şey olmayıb.

Hüquq-mühafizə orqanları Nuri G-ni saxlayıblar. Məhkəmə qarşısına çıxan kişi mediа nümayəndələrinin "Niyə atəş açdınız" sualına "Gedin o tərəfə, çəkəcək başqa şey tapmamısınız?" deyə cavab verib.

**Kənan**

## Oğul anasının başını kəsdi



**Çanaqqalada Recep Güler adlı 66 yaşlı qadının başına gətirilənlər şok effekti yaradıb.**

Milli.Az haber.com-a istinadən xəbər verir ki, qətli psixoloji problemləri olduğu iddia edilən 35 yaşlı oğlu Kamil Güler onun başını kəsməklə yerinə yetirib.

Ata həyat yoldaşının telefona cavab verməmədiyindən şübhələnərək polisə müraciət edib. Evə girəndə polis və həkimlər qan içində yerdə uzanmış Nermin Güleri aşkar ediblər. Şübhəli polis tərəfindən nəzarətə alınıb.



## Hər 20 dəqiqədən bir gözlərinizi kompüterdən çəkin!

Göz həkiminə gedən uşaq və gənclərin sayı artıb



**Pandemiyayla əlaqədar olaraq təxminən 1 il yarımdır ki, distant təhsil kimi kompüter və planşetlərlə daha çox vaxt keçirtməyə alışmış şagirdlər məktəblərə getməyə başlayıb.**

"Şərq" "Hürriyət"ə istinadən xəbər verir ki, əməliyyat həkimi Deniz Marangoz üz-üzə təhsilin bərpası ilə lövhəni görmədiyi üçün göz müayinəsinə gələn uşaq və gənclərin sayının artdığını deyib.

Həkimin sözlərinə görə, göz xəstəliklərinin əmələ gəlməsinin və irəliləməsinin əsas səbəbi genetik faktorlar olsa da, tablet, telefon və kompüterdən uzun müddət istifadə etməyin təsiri danılmazdır:

"Üz-üzə təhsilin bu təsiri bir qədər azaldacağına ümid edilsə də, 1,5 il ərzində meydana gələn ekran vərdişinin dəyişdirilməsi zaman və səy tələb edir. Bu səbəbdən, ekrana baxmaq mümkün olduğu qədər məhdudlaşdırılmalı, hər 20 dəqiqədən bir, 20 saniyəliyinə uzaq nöqtəyə baxılması məsləhət görülür.

Oftalmoloq müayinəsi zamanı aşkarlanan bir göz xəstəliyi üçün eynək verilir, bu eynəklərin müntəzəm istifadəsinin göz yorğunluğunu azaltması və məktəbdəki müvəffəqiyyəti baxımından əhəmiyyətlidir. Uzun müddət ekranda işığa həssaslıqla yanaşan mavi işıq filtrli gözlüklər göz quruluşunun qorunması və göz yorğunluğunun azaldılması baxımından təsirli bir üsuldur".

*Türkiyəli həkim deyib ki, gözdə hiss olunan dəyişikliklərə laqeyd yanaşılmamalıdır:*

"Bir göz mütəxəssisi ən qısa müddətdə həmin şəxsi müayinə etməlidir. Pandemiyanın tələb etdiyi gigiyena tövsiyələrini indi hər bir insan əzbər bilsə də, uşaqlara bu mənada xəbərdarlıq edilməli və əllərini yumadan gözlərinə toxunmamaları, gözlərini cızmamaları vurğulanmalıdır. Gözlərdə qaşınma, qızartı, sulanma, ağrı kimi şikayətlər meydana gəldikdə vaxt itirmədən göz müayinəsinə getmək vacibdir".

Həkim sonda əlavə edib ki, şikayətləri olub-olmamasından asılı olmayaraq uşaqların müntəzəm müayinələrinin ildə bir dəfə kəsilməməsi lazımdır.

## 37 il əvvəl dənizə atılmışdı

Şüşə butulkanı 9 yaşlı uşaq tapıb



**Otuz yeddi il əvvəl Yaponiyada məktəblilərin eksperiment məqsədilə dənizə atdıqları butulka Havai adalarında tapılıb.**

Bu barədə "Şərq" "Haberglobal" a istinadən xəbər verir. Bildirilir ki, şüşə butulkanı doqquz yaşındakı Qraham tapıb. Butulkanın içində məktəblə bağlı məlumatlar əldə edilib.

**Kənan**

## Marsda həyat var

Suyun ilk nümunələri tapılıb



**ABŞ-ın Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) işini fasiləsiz şəkildə davam etdirir.**

Məlum olduğu kimi, NASA-nın əsas məqsədlərindən biri Marsda həyatın olub-olmadığını öyrənməkdir.

"Şərq" "Sabah.com"a istinadən bildirir ki, qurum uzun müddətdir ki, "Aya geri dönüş" adlı proqram üzərində işləyərək dərin araşdırmalar aparır.

NASA verdiyi açıqlamada araşdırma zamanı Marsda suyun ilk nümunələrinin tapıldığını qeyd edib. Məhz suyun varlığı Qırmızı planetdə həyatın ola biləcəyini göstərir.

**Yeganə**

## Danimarka, Sinqapur, Çili...

5 ölkə karantindən imtina edərək əvvəlki həyatına qayıdıb




**Dünyaya Çindən yayılmağa başladığı deyilən koronavirus (COVID-19) 2019-cu ildən bəri pandemiya halına çevrilib və dəmək olar ki, bütün ölkələrdə sürətlə yayılıb.**

Müxtəlif ölkələr yoluxmalara və ölüm sayına nəzarət edə bilmək üçün koronavirus əleyhinə müxtəlif profilaktik tədbirlər görür, xüsusi qaydalar tətbiq edir.

Lakin günümüzdə 5 ölkə bu tədbirlərdən imtina edərək əvvəlki həyatına qayıdıb:

1. **Danimarka**
2. **Sinqapur**
3. **Çili**
4. **Cənubi Afrika**
5. **Tailand**

*Qeyd edək ki, ölkə üzrə bir dənə də olsun koronavirusa yoluxma faktı aşkar edilməyən ölkə Şimali Koreyadır. Onlar sözügedən virusun yayıldığı gündən sərhədlərini bağlayaraq özlərini digər ölkələrdən təcrid ediblər. /medicina.az*